# DÜNYAYA BAŞSAĞLIĞI

**Terrorism Has NO Religion**

**TERRORUN DİNİ YOXDUR**

*Dünyada bir acı hadisə baş verdiyi zaman münasibət bildirənlərin, başsağlığı verənlərin yazılarında bu sözlərə rast gəlməmək olmur: KƏDƏRLƏNİRİK, TƏƏSSÜFLƏNİRİK, QINAYIRIQ, PİSLƏYİRİK, BAŞSAĞLIĞI VERİRİK, ŞƏFA DİLƏYİRİK. Məsələn, Fransada baş vermiş son acı hadisəyə münasibət bildirdiyimizdə tam səmimiyyətimizlə belə yazdıq:*

*"Fransada baş vermiş çoxsaylı insan tələfatını eşitdiyimizdə son dərəcə sarsılıb KƏDƏRLƏNDİK. Parisdə günahsız insanların ölümünə görə TƏƏSSÜF hissi keçirərək bunu bütün bəşəriyyətə qarşı hesab edirik. Dəhşətli hadisəni törədənləri hiddətlə QINAYIR, terrorizm və ekstremizmi qətiyyətlə PİSLƏYİRİK. Həlak olanların ailələrinə, yaxınlarına və bütün Fransa xalqına dərin hüznlə BAŞSAĞLIĞI VERİB, yaralananlara Allahdan ŞƏFA DİLƏYİRİK".*

*Hər hadisəyə fikir bildirmək adətim deyil. Lakin bəzi hadisələr var ki, insan danışmaya, yazmaya bilmir. Yuxarıda qeyd edilən ənənəyə sadiq qalaraq mən də öz hisslərimi belə ifadə etmək istəyirəm:*

*KƏDƏRLƏNİRƏM - hər gün dünyada baş verən soyqırımları, ölüm xəbərlərini eşidəndə!*

*SARSILIRAM - uçuq binalar altdan, dəniz və sahillərdən toplanan uşaq cəsədlərini görəndə!*

*QƏMLƏNİRƏM - yurdundan didərgin düşənlərlə heyvandan əskik davranıldığında!*

*TƏƏSSÜFLƏNİRƏM - dünyada minlərlə insan ölümünə əhəmiyyət verilmədiyində, günahsız məzlumların ah-nalələrinə məhəl qoyulmadığında, yardıma səsləyən insana yardım olunmadığında, digərlərinə qarşı qırğınlar Fransadakı kimi "bütün bəşəriyyətə qarşı" hesab edilmədiyində!*

*QINAYIRAM - zalımları, terroristləri, ekstremistləri, İslam adından çıxış edən din düşmənlərini, "Rəhmli Allahın adıyla" deyib heç kimə rəhm etməyən caniləri, planlı hadisələrdə dinimizi suçlayıb islamofobiya siyasəti aparanları, bütün müsəlmanlara qarşı nifrət yaradanları, yüzlərlə, minlərlə insanı islahat adına terror edənləri, ölən insanlar arasında din, irq, millət fərqi qoyanları!*

*PİSLƏYİRƏM - pisləri, yaxşını pis, pisi yaxşı göstərənləri, pisliklərə seyirçi qalan sülh və barışıq iddiaçılarını, ikili standart yürüdüb ayrıseçkilik salanları, insanların faciəsi üzərindən siyasət quranları, can alanları, orqan satanları, bütün pislərin arxasında duran gücləri, ünsürləri və onlara dəstək verənləri!*

*BAŞSAĞLIĞI VERİRƏM - günahsız ölənlərin, şəhidlərin ailələrinə, insanlıqları ölənlərin, vicdanları məhv olanların sahiblərinə, qloballaşan, inkişaf və tərəqqidə olan demokratik dünyamıza, başsağlığı verilməyən, sayılmayan bivarislərə, dünyada kimsəsi olmayan məzlum və zəif xalqlara!*

*ŞƏFA DİLƏYİRƏM - fiziki xəstələrə, xəsarət alanlara, ruhu yaralananlara, beyni, düşüncəsi xəstə olanlara, ağıldan yararlanmayan nadan xəstələrə!*

*Hacı Ramin İgidov*

# İSLAM TƏCAVÜZƏ BƏRAƏT VERİRMİ?



***Gündəm sabit deyil. Demək olar ki, hər gün heyrətamiz hadisələrin şahidiyik. Hər bir hadisənin də ya əvvəlində ya ortasında və ya da axırında bir insan hüququ qəzaya uğrayır.***

**Qəzalarsa təsadüfi baş vermir.**

Fəlsəfi qaydaları əsas götürsək, hansısa bir nəticənin-qəzanın, hadisənin baş verməsi üçün bütün səbəblər mütləq bir araya gəlməlidir. Əks halda bir tük belə yerindən tərpənməz.

Uzağa getməyək. Sizcə Öcgəcan bir günün içindəmi qətlə yetirildi? Əlbəttə ki, yox! Məlum hadisənin ən azı bir sosioloji, psixoloji və ya dini tərəfi var.

Məsələn, qətllə başa çatan bir sıra cinsi təcavüzlər adətən şəxsiyyət pozuntusunun, uşaqlıq və yeniyetməlik çağlarından yaranan cinsi sapıntıların nəticəsidir ki, Freydin psixoseksual inkişaf mərhələlərində bu barədə söz açılır.

Yaxud iqtisadi, mədəni və digər psixoloji problmlər də oxşar hadisələrdə təsirsiz ötüşmür. Maddi vəziyyətindən dolayı normal cinsi münasibət qura bilməyən ehtiraslı gəncin istənilən yaramaz hərəkətlərə əl atması mümkündür. Və ya mədəniyyət, əxlaq, mənəviyyat kimi dəyərlərə laqeyd insanlarla dolu bir cəmiyyətdə bir qadın iffəti sığortalana bilməz. Lamiyə olayı və buna oxşar minlərlə cinayətlərin kökündə bu məsələlər dayanır.

Belə isə niyə hadisəyə qədərki səbəblər göz ardına vurulub, yalnız nəticə lənətlənir? Halbuki, cinayətlərin patoloji baxımdan təhlili daha zəruridir.

Oğru bir günün içində oğru olmur, qatil bir günün içində əlini qana bulaşdırmır, əxlaqsız bir günün içində ləyaqətini itirmir, bunu hamı bilir.

Bəlli olduğu kimi, İslam dinində məhrəm-naməhrəm anlayışı mövcuddur. Yəni bu hökmə əsasən, hər bir kişi özünü qadınlara cinsi məqsədlə yaxınlaşmaqdan qorumalı, hətta olara pis niyyətlə baxmamalıdır . Yəni din qadınların geyimlərinə dair bəlli göstərişləri verməklə yanaşı kişilərə də gözlərini qorumağı əmr edir:

"(Ya Rəsulum!) Mömin kişilərə de ki, gözlərini haram edilmiş şeylərdən çevirsinlər (naməhrəmə baxmasınlar), ayıb yerlərini (zinadan) qorusunlar. Bu onlar üçün (ədəbərkan, təmizlik baxımından) daha yaxşıdır. Şübhəsiz ki, Allah onların nə etdiklərindən xəbərdardır!"

(Qurani-Kərim, 24:30)

Fikir tam aydındır: Yəni Özgəcanın nə geyinməsindən, necə geyinməsindən aslı olmayaraq heç bir fərd ona əsla pis niyyətlə baxmamalıdır.

Əlbəttə, bu göstərişdən qabaq əxlaqi səciyyələrə yiyələnməyin, ruhun saflaşdırılmasının vacibliyi vurğulanır:

"Nəfsini (günahlardan) təmizləyən mütləq nicat tapacaqdır! Onu (günaha) batıran isə, əlbəttə, ziyana uğrayacaqdır." (91: 9, 10.)

Göründüyü kimi, ictimai davranışları tənzimləməyə yönələn din təlimləri cəmiyyətdə baş verə biləcək bir çox dəhşətli hadisələrin qarşısını almaqda effektlidir. Bunun üçün isə dünyagörüşlərindən aslı olmayaraq, bütün ziyalıların əksəriyyəti müsəlman olan bir cəmiyyətdə cinsi təhlükəsizliyin təmin olunması məqsədiylə uyğun göstərişləri dəstəkləmələri, öz aydın düşüncəleriylə gənclərinin öz dini dəyərlərinə daha sədaqətlə yanaşmasına zəmin yaratmaları çox əhəmiyyətli addım kimi dəyərləndirilə bilər. Əks halda, elə bir toplumla qarşı-qarşıya gələcəyik ki, orda dəyər, ləyaqət, iffət heç bir əhəmiyyət kəsb etmir.

Açığı, utopik nəzəriyyələrlə cəmiyyəti idarə etmək, qorumaq mümkün deyil. İslahatlar aparılmasa, məlum hadisələrin sayı daha da çoxalacaq. Hadisələrin qarşısı isə yubka və ya dikdaban geyməklə almaq mümkün deyil. Ümumiyyətlə Özgəcanın və ya öz ailəsi tərəfindən təcavüzə məruz qalmış 15 yaşlı qızcığazın buna ehtiyacı da yoxdur.

Onların fəryada ehtiyacı var- nəticəni deyil də səbəbləri qınayan fəryada!

***Niyam Aqil***

# ӘMİRӘLMÖMİNİN (Ә) CAHİLLӘR QARŞISINDA

***Doktor Dinani ilə söhbət***

***Təqvalılar mövlasının əzəmətini və məqamını dərk etmək üçün onun bir sözünü yada salmaq bəs edir: "Əgər pərdələr çəkilsə, mənim əminliyimə bir şey əlavə olunmaz..."***



Mehr İnformasiya Agentliyi tanınmış filosof, doktor Dinani ilə Əmirəlmöminin Əli ibn Əbu Talib (ə) haqqında söhbətləşib. Doktor Dinani söhbət əsnasında deyib:

Çox üzücüdür ki, həzrət Əli (ə) qəlbinin dərdini quyuya deyib. Quyu ilə dərdləşmək həzrətin öz dövründə cahil insanlarla əhatə olunduğunu göstərir.

Təqvalılar mövlasının əzəmətini və məqamını dərk etmək üçün onun bir sözünü yada salmaq bəs edir: "Əgər pərdələr çəkilsə, mənim əminliyimə bir şey əlavə olunmaz..." Sanki dünyanın Əmirəlmömininin (ə) dərdlərini dinləməyə, onunla həmsöhbət olmağa tutumu olmayıb. Nəhayət bu dünya, onun cəhalətə qərq olmuş insanları quyu ilə dərdləşən Mövlanı şəhadətə yetiriblər.

Mövlana həzrət Əlinin (ə) mədhində deyir ki, ey Əli (ə), bütün ağıl (əql) və göz səndədir, gördüklərindən bir neçə söz danış... Bütün ağıl və göz dedikdə bəsirət nəzərdə tutulur. Ağıl kamilləşəndə yeni xüsusiyyətlər əldə edir. Mərifət ağılın xüsusiyyətidir. Ağıl mərifət və dərk sayəsində Allah-taalanın əzəmətini qavrayır. Kamil ağılın təvazö xüsusiyyəti var. Təvazö insanı ibadət-itaətə, gecələr raz-niyaza sövq edir.

Şəhriyar deyir ki, üfüq söküləndə Əlini (ə) yatmış görə bilmədi. Gecə də Əlinin (ə) yatdığına şahid olmadı. Əmirəlmömininin (ə) gecələr oyaq qalması, Allahla raz-niyazı, quyu ilə dərdləşməsi barədə rəvayətlər çoxdur. Bu rəvayətlər çox üzücüdür. Mövla nə üçün quyu ilə danışırdı? Quyu Əlinin (ə) sözlərini eşidirdimi? Əslində Mövlanın quyu ilə danışması dövrünün cəhalətinə işarə idi.

Həzrət Əli (ə) kamil ağıl sahibi idi. Bu kamil ağıl və bəsirət sahibi hansı cəmiyyətdə yaşayırdı? Həmin cəmiyyətin üzvlərindən biri "mürəkkəb cəhalətə" qərq olmuş İbn Mülcəm idi. Bu adam heç bir dəlil-sübut qəbul etmirdi, heç bir haqq sözə qulaq asmırdı. Təəssüb və cəhalət əsiri olmuşdu. O nadan cəmiyyətin bir nümayəndəsi idi. Həzrət quyu ilə danışırdısa, mənası bu idi ki, onu dinləyən, anlayan biri yoxdur.

Bəli, İmam Əli (ə) qatı, mürəkkəb cəhalətə qərq olanlarla üzbəüz idi. Bəsit cəhalətin eybi yoxdur. Bəsit cahil bilmədiyini bilir. Bilmədiyini bildiyindən deyilən sözə qulaq asır. Mürəkkəb cəhalətə uğrayan isə təkəbbürlüdür, özünü alim sayır, buna görə də kimsəyə qulaq asmır.

Bu adamlar Əmirəlmömininin (ə) sözlərinə qulaq asmırdılar. Həzrətin deyəcəyi sözlər qiyamətə qədər dərdləşdiyi quyularda qaldı. Dərd əhli, həqiqət axtaran insanlar Mövlanın səsini eşidir. Mövlanın fəryadı hər zaman, hər yerdə ünvanını axtarır. Tarix durduqca bu sözlər də duracaq. Mövla Əli (ə) ədalət yolunun şəhidi oldu. Bu yol insanlara sevgi yolu idi. Amma dövr Əlinin (ə) ədalətinə dözmək gücündə deyildi. Buna görə də ən zalım birinin əli ilə qətlə yetirildi.

İbn Mülcəm nadanlıq və cəhalət mücəssəməsi idi. Bu adamda düşünmək istedadı yox idi. Beləcə, insaniyyət təcəssümü cəhalət təcəssümünün əli ilə qətlə yetirildi. Bu tarix üçün böyük dərsdir. Mövla Əli Allahın vəlisi, elm və mərifət məzhəri idi. Elm və mərifət məzhəri cəhalət və nadanlığın hədəfinə çevrildi.

Maddiyyat aləmində hər dairənin bir mərkəzi və əhatəsi var. Dairənin mühiti onun mərkəz nöqtəsini əhatəyə alıb. Mərifət aləmində isə belə deyil. Bu aləmdə mərkəz mühiti əhatə edib. Bir dünya elm və məlumat varımızdır. Aləm məlumdan, məlum da aləmdən ayrı deyil. Elm məlumu əhatə edir, yoxsa məlum elmi? Elm məlum üçün mühitdir. Bu mənəvi dairədir. Mənəvi dairənin mərkəzi elm, Əlidir (ə).

Həzrət Əmir ilahi mərifətin kamil məzhəri, bəşəriyyət üçün nümunədir. Bir dəfə qazinin hüzurunda olanda qazi ona "Ya Əbül-Həsən" deyə müraciət etdi. Həzrət Əli (ə) ilə bir nəfər arasında mühakimə aparan qazi həzrətin etirazı ilə qarşılaşdı. Həzrət etiraz etdi ki, nə üçün qazi ona ehtiramla, ikinci tərəfə adi qaydada müraciət edir. Buyurdu ki, bu şəxslə mənim aramda mübahisə var, hər ikimizə eyni gözlə bax. Bu idi Əlinin (ə) ədaləti.

Mərifətsiz ədalət əfsanədir. Bir adamın mərifəti yoxsa, onun ədalət iddiaları puçdur. Axı mərifəti olmayan şəxs ədaləti necə tanıya bilər?! Yada saldığım mühakimədə həzrət Əmirin rəftarı bütün dünyadakı hakimlər üçün nümunədir. Mühakimədə bitərəf olmaq, sevgi və nifrətdən təsirlənməmək çətindir.

Mərifətsiz insanın dəm vurduğu ədalət fənadır, ədalətin dərki üçün mərifət lazımdır. İlahi mərifət olan yerdə ədalətin mənası aşkarlanır. Mövlamız belə ədalət məzhəri idi.

# EŞQİN MƏNASI

## *Eşq və onun mahiyyəti nədir?*

***"Eşq" sözü ərəb dilində "əşəqə" sözündən törəmiş və ifrat meyl deməkdir. "Əşəqə" ərəb dilində ağacın ətrafına dolandıqda onun suyunu canına çəkən bitkiyə deyilir (sarmaşıq). Nəticədə ağac saralır və get-gedə quruyur (İbn Mənzur, "Lisan əl-ərəb", c. 9, səh. 224). Lakin terminologiyada "eşq" güclü sevgiyə deyilir. Başqa sözlə, eşq sevginin ən yüksək pilləsidir (Məhəmməd Qəzzali, "İhya əl-ülum əd-din", c. 4, səh. 275).***



Lakin həqiqət budur ki, bu sözə həqiqi tərif vermək mümkün deyil. Mühyiddin ibn Ərəbi yazır: "Kim eşqə tərif versə, onu anlamamış, eşqin kimsəni doyurmayacaq bir şərab olduğunu bilməmişdir"

("Əl-Fütuhat əl-Məkkiyyə", c. 2, səh. 121).

Louis Massignon yazır: "İlk ariflər "eşq" sözünü işlətmirdilər. Bəlkə də məcazi və cismani eşqdən çəkinirdilər. Buna görə də daha çox məhəbbət sözündən istifadə edirdilər

(Bax: Babək Əhmədi, "Çəhar qozareş əz "Təzkirə əl-övliya"i-Əttar", səh. 46).

Əttar deyir:

***Porsi to ze man ke aşeqi çist?***
***Ruzi ke ço man şavi, bedani.***

**Tərcümə:** Məndən eşqin nə olduğunu soruşursan. Mənim kimi olduqda biləcəksən.

Eşq elmi baxımdan tərifolunan deyil. Çünki nə hiss olunandır (maddi, konkret), nə də rasional. Bir halda ki, hiss və zəkaya təsiri böyükdür. Əgər tərif verən özü eşq bəsləyirsə, aşiqdirsə, şübhəsiz, onun tərifi düzgün olmayacaq. Çünki bu qeyri-adi hadisə onun bütün düşüncə və hisslərinə hökmranlıq edir. Misal üçün, əgər aşiq eşqə tərif vermək istəsə, tərifdə yer alan məfhumlar aşiqin psixi vəziyyəti ilə qarışacaq və Mövlananın təbirincə, eşq iyi verəcək.

("Məhəmmədtəqi Cəfəri, "Nəqd və təhlili məsnəvi", c. 3, səh. 147).

***Gər çe quyəm eşq ra şərh-o bəyan,***
***Çon be eşq ayəm xəcel başəm əz an.***
***Gər çe təfsiri-zəban roşangər əst,***
***Lik eşqi-bizəban roşəntər əst.***
***Çon qələm əndər neveştən mişetaft,***
***Çon be eşq aməd, qələm bər xod beşkaft.***
***Əql dər şərhəş ço xər dər qol bexoft,***
***Şərhi-eşq-o aşeqi həm eşq qoft.***
***Aftab aməd dəlili-aftab,***
***Gər dəlilət bayəd əz vey ru mətabəd.***

**Tərcümə:**

Hərçənd, eşqi açıqlayıram, izah edirəm. Amma eşqin özünü gördükdə ondan utanıram.

Hərçənd, dil ilə izah etmək daha aydınlaşdırıcıdır. Amma dilsiz eşq daha aydındır.

Qələm yazmağa tələsirdi. Eşqə gəlincə isə öz-özündən sındı.

Zəka onun şərh edərkən eşşək palçığa girəntək yatdı. Eşq və aşiqliyin izahını da eşq özü verdi.

Günəş özünə dəlil olaraq şaxdı. Sənə dəlil lazımsa, ondan üz döndərmə.

("Məsnəvi", 1-ci dəftər, 112-116-cı ayələr).

### Eşqin mənşəyi

Eşqin mənşəyi Allahdır, yoxsa başqa bir həqiqət?

Yaradılışın əsasında Allahın öz təzahür eşqi durur. Çünki eşqin səbəblərindən biri özünəsevgidir. Allah da ən ali varlıq olaraq özünə və öz təzahürünə sevgi bəslədiyi üçün dünyanı yaratdı.

"Mən tanınmağı sevən gizli bir xəzinə idim. Məxluqatı yaratdım ki, tanınım" (Səxavi, "Məqasid əl-həsənə", səh. 153).

Demək, ilk eşq bəsləyən Allah olmuşdur ("Əbu əl-Həsən Deyləmi, "Ətf əl-əlif əl-məluf əla əl-kəlam əl-mətuf", səh. 28).

O, bu özünə eşq səbəbilə məxluqatı da sevir (Bax: Əllamə Təbatəbai, "əl-Mizan").

Eynülqüzaq Həmədani yazır: "Əfsus! İnsanlar elə bilirlər ki, Onun (Allahın) məxluqata verdiyi nemətlər və onlara sevgisi məxluqatın özü üçündür. Xeyir, məxluqat üçün deyil. Əksinə, O, bunları özü üçün edir. Aşiq məşuqa lütf edirsə, əslində o lütfü məşuqa yox, özünə edir. Əfsus! Sən elə bilirsən ki, Allahın Mustafaya sevgisi Mustafa üçündür? Bu sevgi Onun özü üçündür" ("Təmhidat", səh. 217).

Aləmin mənşəyi Allah-Taala olduğu kimi eşqin də mənşəyi odur. Eşq də varlıq kimi Haqqın zatından aləmə sirayət edir.

***Toube kərdəm-o eşq həmçun əjdəha,***
***Toube məxluqun vəsfi, o isə Allahın vəsfidir.***
***Eşq ze ovsafi-Xodayi-biniyaz,***
***Aşeqi bər ğeyri-u başəd məcaz.***

**Tərcümə:**

Tövbə etdim, amma eşq əjdəha kimidir. (Çünki) Tövbə məxluqun vəsfidir, eşq isə Allahın.

Eşq ehtiyacsız Allahın sifətlərindəndir. Ondan başqasına eşq bəsləmək isə məcazdır ("Məsnəvi", 6-cı dəftər, 970-971-ci beytlər).

Tərcümə edən: **Maqsud Sayıl**

# HƏZRƏT MƏHƏMMƏDİN (S) MÖVLUDU

## Məhəmmədin (s) soykökü

Peyğəmbərin soyu və əcdadı ardıcıllıqla aşağıdakılardır: Abdullah, Əbd əl-Müttəlib, Haşim, Əbd-Mənaf, Qusəy, Kəlab, Mərrə, Kəəb, Löy, Fəhr, Malik, Nəzr, Kənanə, Xuzeymə, Mudrikə, İlyas, Muzər, Nəzar, Məəd, Ədnan.

Peyğəmbər (s) buyurmuşdur: “Mənim soyum Ədnana çatdıqda dayanın, ondan o tərəfə keçməyin” (Ərbili, “Kəşf əl-ğümmə”, c. 1, səh. 15). Hamı yekdilliklə qəbul edir ki, Ədnanın soyu İbrahim peyğəmbərin (ə) oğlu İsmayıla gedib çıxır (Cəfər Mürtəza Amuli, “əs-Səhih min sirə ən-nəbi əl-əzəm”, c. 2, səh. 63).

Haşim Peyğəmbərin (s) ulu babası olmuşdur. Adı Əmr olsa da Əmr əl-Ula, əl-Qabiş Qəmər, Zad ər-Rəkb kimi tanınmışdır. Ən məşhur adı isə Haşimdir. O, həcc mərasimi başlayanda bütün Məkkə əhalisini Allah evinin hörmətini qorumağa çağırırdı. Onları Allah evinin zairlərinə və Allah qonaqlarına hörmətlə yanaşmağa çalışırdı (İbn Əbu əl-Hədid, “Şərhi-Nəhc əl-bəlağə”, c. 3, səh. 457). O özü hacılara Məkkədə, Minada, Ərəfat və Məşərdə yemək verirdi. Onlar üçün çörək, ət, yağ və sıyıq hazırlayırdı. Suyu yanlarıyca aparırdı. Hətta quraqlıq, qıtlıq illərində də bu işi görürdü. Buna görə də Haşim adlanırdı (Məhəmməd İbrahim Ayəti, “Tarixi-Peyambəri-islam”, səh. 44).

Onun zilhiccə hilalının (təzə ayın) çıxması münasibəti ilə söylədiyi xütbələr və münacatlar tarixdə qeyd olunmuşdur. Quraqlıq illərində onun səxavəti insanların əziyyət çəkməsinə mane olurdu. O, əmir İnsanla ticari müqavilə bağlamışdı. Onun hökmranlığı dönəmində



Həbəşistan, Yəmən və İran şahları ilə də müqavilələr imzalanmışdı. Haşim, Qüreyş üçün iki ticari səfərin – yay və qış səfərlərinin – əsasını qoydu. Qışda Şama, yayda isə Həbəşistana (Əbu Vazeh Yaqubi, “Tarixi-Yaqubi”, c. 1, səh. 242).

Haşim, Yəsribdən bir xanımla ailə qurdu. Bu evlilikdən Şeybə adlı bir oğlu oldu və sonralar Əbd əl-Müttəlib adlandırıldı (“Tarixi-peyambəri-islam”, səh. 45).

## Abdullahın qurban kəsilməsi

Əbd əl-Müttəlib Zəmzəm quyusunu yenidən bərpa edəndə Qüreyş quyu ilə bağlı ədavətə başladı. Ədavətin ən qızğın çağında Əbd əl-Müttəlib nəzir etdi ki, övladlarının sayı ona çatdıqda onlardan birini qurban kəssin. Elə ki, övladlarının sayı ona çatdı, nəzrinə vəfa qılmaq üçün hamısını bir yerə topladı. Belə qərara aldılar ki, püşkatma yolu ilə birini seçsinlər. Hamı bu fikri dəstəklədi. Püşk Peyğəmbərin (s) atası Abdullahın adına düşdü. O, qurban kəsilməsini qəbul etdi. Amma başqaları buna mane olmağa çalışdılar. Buna görə də on dəvə ilə Abdullah arasında püşk atdılar. Bu şərtlə ki, əgər püşk Abdullaha düşsə, dəvənin sayını artırıb (on dəvə əlavə edib) yenə püşk atsınlar. Əgər yenə püşk Abdullahın adına çıxarsa, yenə də dəvənin sayını artırsınlar (on dəvə əlavə etsinlər). Əgər yenə püşk ona düşsə, bir daha on dəvə artırsınlar. Püşk dəvələrə düşüncə beləcə davam etsinlər. Püşkatma başlandı. Hər dəfə Abdullahın adı çıxırdı. Dəvələrin sayı yüzə çatdıqda püşk dəvələrə düşdü və bu zaman Əbd əl-Müttəlib həmin gün yüz dəvə kəsilməsini tapşırdı (Əli ibn Bürhan əd-Dİn əl-Hələbi, “əs-Sirə əl-hələbiyyə”, c. 1, səh. 38).

Əbd əl-Müttəlibin bu şəkildə nəzr etməsinin o zaman icazəli olub-olmaması məlum deyil (“Əs-Səhih min sirə ən-nəbi əl-əzəm”, c. 2, səh. 54). Necə ki, həzrət İbrahim (ə) də doğru yuxuya əsasən oğlu İsmayılı qurban kəsməyə qalxdı. Amma hər iki hadisə baş tutmadı. Amma İsmayıl və Abdullahın məqamı tarix boyu sərgiləndi.

## Təvəllüdü zamanının hadisələri

Allah rəsulunun dünyaya gəldiyi gün qəribə hadisələr baş vermişdir və bir çox tarixçilər aşağıdakı hadisələrin o həzrətin (s) dünyaya gəlişi ilə yanaşı baş verdiyini bildirmişlər:

1. Mədaində Kəsra sarayının eyvanı titrədi və 13, yaxud da 14 sütunu aşdı;

2. Fars atəşgahı min il yanmasına baxmayaraq söndü;

3. Savə gölü qurudu;

4. Bütlər hamısı ağzı üstə yerə aşdılar;

5. Məkkə səmasında bir nur meydana gəldi və bütün şəhəri aydınlatdı ("Tarixi-Yaqubi", c. 2, səh. 55).

Beyhəqi Peyğəmbərin (s) təvəllüd gecəsinin hadisələri haqqında yazır:

"Peyğəmbərin (s) mövlud gecəsi Kəsranın eyvanı sarsıdı və çat-çat oldu. On dörd sütunu aşdı. Daim yanan fars atəşgahı söndü. Savə gölü qurudu. Böyük möbid – zərdüşt dininin başçısı, kahini – yuxuda gördü ki, iri dəvələr ərəb atları ilə birgə dəclə çayını keçdilər və İrana dağıldılar" (Əbu əl-Fəzl Beyhəqi, "Dəlail ən-nübüvvə", c. 1, səh. 99).

İbn Şəhraşub, Beyhəqinin yazdığı hadisələrdən başqa İmam Sadiqdən (ə) başqa hadisələri də nəql edir: "Peyğəmbərin (s) təvəllüdü zamanı bütlər üzü üstə yerə aşdılar. Tacı aşmayan, dili topuq vurmayan padşah qalmadı. Kahinlər öz biliklərindən ayrıldılar. ... O gecə Hicaz diyarında nur meydana gəldi və şərqə tərəf yayıldı" (İbn Şəhraşub, "əl-Mənaqib", c. 1, səh. 30).



### Yetimlik dövrləri

"Zuha" surəsinin 6-cı ayəsində oxuyuruq: "Məgər O səni yetim ikən tapıb sığınacaq vermədimi?!"

Bu ayə Peyğəmbərin (s) yetimliyindən söhbət açır. Peyğəmbərin valideynlərinin dünyasını dəyişməsi əhvalatına diqqət edin:

Peyğəmbərin (s) atası Abdullah 25 yaşında Mədinədə atasının Bəni-Nəccar tayfasından olan dayılarının yanında, "Dar ən-nabiğə" kimi məşhurlaşan evdə vəfat etdi və məşhur versiyaya görə, onun vəfatı Peyğəmbərin (s) təvəllüdündən qabaq baş vermişdir.

Anası Amənə bint Vəhəb də həzrətin (s) dünyaya gəlişindən altı il üç ay keçdikdən sonra övladını Mədinəyə apardığı səfərdən Məkkəyə qayıdarkən 30 yaşında "Əbva" adlı yerdə dünyasını dəyişdi.

Əbd əl-Müttəlib də nəvəsinin 8 yaşı olanda dünyasını dəyişdi. Sonra həzrət (s) əmisi Əbu Talibin yanında böyüdü ("Tarixi-Yaqubi", c. 1, səh. 520; "Tarixi-Peyambəri-islam", səh. 52-53). Buna görə də Peyğəmbərin (s) həyatı doğuşdan yetimliklə başladı. Elə çətin günlər keçirdi ki, yalnız Allaha sığınmaq ona təsəlli verə bilərdi. Onun həyatının bu dönəmi nübüvvət dönəmində sığınacaq axtaranların pənahı ola bilmək üçün bir müqəddimə idi.



# FEMİNİZM QEYDLƏRİ

***1. "Feminizmin sözü, iddiası nədir?"- sualına qısa və konkret şəkildə cavab vermək istəsək, belə deyə bilərik: İndiyədək aləmə - istər xarici aləm olsun, istərsə də daxili aləm- ancaq kişi eynəyi ilə baxılıb və yalnız kişilər psixoloji, metafizik, epistemoloji, ontoloji və s. bu kimi bilik istehsalı ilə məşğul olublar. Onlar aləm barədə öz təfsirlərini, şərhlərini, oxunuşlarını, yozumlarını ortaya qoyublar. İndi isə qadınlar kişi eynəyini çıxarıb öz eynəkləri ilə aləmə baxmaq kişilərlə yanaşı aləm barədəki öz təfsirlərini təqdim etmək qərarına gəliblər. Bir sözlə, feminizm- yəni aləmə qadıncasına baxmaq deməkdir.***



2. Qadınla kişi arasındakı fərqliliklərdən çıxış edərək birinin digərindən üstün olması nəticəsini almaq məntiqi baxımdan sofistikadır. Çünki fərqlilik üstünlük demək deyil. Əksinə, fərqlilik elə "fərqlilik" deməkdir, vəssalam. Məsələn, əgər desək ki, bu kağız ağdır, o biri kağızsa sarı, bu zaman bu iki kağızın fərqli olduğunu demiş oluruq, nəinki birinin digərindən üstün olmasını.

3. Bəziləri aşağıdakı dəlildən çıxış edərək, qadınların kişilərlə müqayisədə obyektiv mühakimə yürütməkdən, düşünməkdən məhrum olduqlarını iddia edirlər. Gəlin, dəlilə nəzər salaq:

1. Təcrübi müşahidələrə əsasən, qadınlar kişilərdən daha çox eşqlə kontaktadırlar və ona bağlıdırlar.

2. Eşq emosiyanal bir hal kimi insanı obyektiv mühakimə yürütməkdən, tərəfsiz düşünməkdən məhrum edir.

3. Deməli, qadınlar obyektiv mühakimə yürütmədə, tərəfsiz düşünmədə kişilərdən aşağı dərəcədə yerləşirlər. Odur ki, hansısa bir nəsnə barədə kişi mühakiməsi ilə qadın mühakiməsi toqquşarsa, kişi mühakiməsi irəli düşməlidir, çünki onun mühakiməsi daha obyektiv, tərəfsizdir.

Feministlər yuxarıdakı dəlili tənqid edərək deyirlər ki, 2-ci müqəddimə məntiqi baxımdan yanlışdır və sonucda, alınan nəticə də yanlışdır. Onlar qeyd edirlər ki, biz "eşq" anlayışına, indiyədək diqqətdən yayınan fərqli aspekdən də yanaşa bilərik, belə ki, insan nəyəsə eşq bəsləyəndə onunla ittihad əlaqəsinə girərək onunla bir olur. Bu da, epistemoloji baxımdan, eşq bəslənilən obyektə nail olma, onu dərk etmə imkanını daha da asanlaşdırır. Çünki aşiq birisi eşq bəslədiyi obyektin üzərində təmərküzləşdiyi üçün onun bütün incə, xırda yönlərini, detallarını diqqətlə nəzərdən keçirir. Bu da aşiqdə eşq bəslədiyi obyekt barədə dərin və geniş bilik formalaşdırır, həyata keçirir. Məsələn, analar eşq sayəsində öz övladları barədə hamıdan daha dəqiq, dərin, geniş bilgiyə sahibdirlər.

Deməli, aydın olur ki, eşq nəinki obyektiv mühakimənin qarşısını alır, əksinə, mühakiməni daha da obeyktivləşdirir.

4. Bəşəriyyət tarixində qadınlara rəva görülən zülmlərdən biri də onların "obyekt" kimi tanıtdırılmasıdır. Bu da o deməkdir ki:

-Qadınlar çox vaxt təsirə məruz qalır və kişilərsə təsir edirlər;

-Qadınlar çox vaxt kişilər tərəfindən bilik obyektinə çevrilirlər və əksi isə bəzən baş verir;

-Qadınlar obyekt olduğundan bilik istehsal edən yox, bilik istehlak edən olurlar;

-Qadınların bilik istehsalındakı payı kişilərin payına baxanda minimal həddi təşkil edir.

-Qadınlar varlıq aləmindəki statusu çevrənin ətrafı, kişilərinki isə mərkəzidir.

-Qadınlar obyekt olduğundan "məhkum (hökm edilən)", kişilərsə subyekt olduğundan "hakim(hökm edən)"dirlər.

-Qadınlar obyekt olma nəticəsində "zəif", kişilərsə subyekt olma nəticəsində "güclü"dürlər.

-Qadınlar obyekt olduğuna görə "passiv", kişilərsə subyekt olduğuna görə "aktiv" olurlar.

-Qadınların obyekt olmaları onları statikləşdirir, kişilərin subyekt olmaları isə onları dinamikləşdirir.

5. Mən feminizmdən yazanda "siyasi feminizm"lə "fəlsəfi feminizm"i bir-birindən ayırıram. Düzdür, tarixi baxımdan, ilk olaraq siyasi-ictimai feminizm peyda olub, ancaq sonradan bu, fəlsəfi feminizmə çevrildi. Bu gün modern dünyada artıq fəlsəfi feminizm öz sözünü deməkdədir, kifayət qədər öz fəlsəfi məktəbələri barədə məqalələr, kitablar yazıblar. Xüsusilə, idrak nəzəriyyəsi, əxlaq fəlsəfəsi sahələrindəki tədqiqatları təqdirə layiqdir.

6. Feminizmi sevməyənlər və ya onu yanlış anlayanların səhvi ondadır ki, onlar "mövcud feminizm"lə "ideyal feminizm"i bir-birindən ayırd edə bilmirlər. Elə sanırlar ki, mövcud feminizmdə problemlər, yanlış görüşlər varsa, deməli, feminizm batil bir

məktəbdir. Halbuki bildiyimiz kimi, "mövcud olan"ı tənqid etməklə "ideal olan"ı tənqid etmirik. Düzdür, mövcud feminzimdə yanlış cəhətlər, nöqsanlar ola bilər, necə ki, bəzi yanaşmalarında var, ancaq unutmayaq ki, bu, hər bir fikri məktəbdə var. Biz feminizmdə doğru olanları götürməli, yanlış olanlarısa kənara atmalıyıq.

7. Feministlər hesab edirlər ki, "mövcud elm" kişilərin kainat barədəki bilik məhsullarının toplusudur. Bütün elm sahələrinə kişimərkəzlilik hakim kəsilərək "kişi rəngi"nə boyanmışdır. Həm humanitar elmlərdə, həm də empirik (təcrübi) elmlərdə istehsal olunan bilgi məhsullarının üzərində "Made by the mən" yazılıb. Əgər qadınlar da bilik istehsalı prosesinə qatıla bilsələr, onlara belə bir imkan tanınsa, mövcud elmin mahiyyəti tamamilə indikindən tam fərqli bir istiqamətə yönəlmiş olar. Fəlsəfi feminizm buna nail olmağa çaba göstərir.

8. Feministlərə görə, emosiyalar bilik əldə etmə prosesində nəinki "maneə" kimi, əksinə, onlar bilik əldə etmək üçün effektiv metodlar kimi çıxış edirlər. Feministlərin fikirincə, nəsnə və olayları olduğu kimi anlamamağımızın əsas səbəbi onlarla düzgün əlaqə (connection) qura bilməməyimizə görədir. Əgər əşya və hadisələrlə düzgün əlaqə qura bilsək, o zaman onları olduğu kimi dərk edə bilərik. Bəzi psixoloqlara görə, belə bir əlaqəni aşağıdakı üç elementlə həyata keçirə bilərik:

***1. Sevgi, eşq (Love);***
***2. Şəfqət (Empathy);***
***3. Rəğbət (sympathy).***

9. Bəzi tədqiqatlara görə, qadınlarda "IQ" kişilərlə müqayisədə yüksəkdir. Əgər qadınlara kişilərlə rəqabətə girmə imkanı onlara verildiyi kimi verilsəydi, inanın ki, bu gün fərqli bir sivilizasiya, mədəniyyət, elm, texnologiya ilə qarşı-qarşıya olacaqdıq. Baxın, humanitar və empirik elmlərdə qadın tədqiqatçıları necə də maraqlı, fərqli, düşündürücü, heyrətləndirici görüşlər, baxışlar, rəylər ortaya qoyurlar. Bu, onu göstərir ki, qadın ağılının məhsulu kişi ağılının məhsulundan fərqlidir.

10. Təqribən, 60-ci illərdən bəri fəlsəfə dünyasında belə bir sual irəli sürüldü: Fəlsəfələməkdə cinsiyyətin nə qədər təsiri var? Fəlsəfələmək cinsiyyətə münasibətdə tərəfsiz, neytraldır, yoxsa yox?

Yuxarıdakı suala cavab olaraq dörd fərqli yanaşma irəli sürüldü:

1- Kişilər və qadınlar - hər birisi öz fərqli yanaşmalarının ardınca olmalıdır.

2- Qadınlar fəlsəfəyə kişimərkəzli yanaşmalıdırlar.

3- Kişilər fəlsəfəyə qadınmərkəzli yanaşmalıdırlar.

4- Kişilər və qadınlar əl-ələ verib qeyd olunan yanaşmaları genişləndirməli, dərinləşdirməli və təkmilləşdirməlidirlər. Bir sözlə, birgə fəlsəfi bilik istehsal etməlidirlər.

Deməli, 1-ci yanaşmada kişi baxışı ilə qadın baxışı arasında uyuşmazlıq var, yəni bu iki baxış arasında heç bir kəsişmə nöqtəsi yoxdur. Belə ki, qadınlar aləmə bir cür baxır, kişilərsə başqa cür. 2-ci yanaşmada qadın baxışı kişi baxışı kateqoriyası altında yerləşir (Male approach to philosophy). 3-cü yanaşmada isə kişi baxışı qadın baxışı altında yerləşir (Feministic approach to philosophy). Nəhayət, 4-cü yanaşmada isə bu iki baxış arasında həmkarlıq, təkmilləşdirmə, sintez, genişləndirmə, dərinləşdirmə həyata keçir.

11. Uzun bir süredir ki, dini mətnin, tekstin (Quran və sünnə) qadınlar tərəfindən də feminist bir baxışla oxunuşu, təfsiri, izahı, açıqlanması, dərki barədə düşünürəm. Görəsən, mövcud dini elm sahələri "qadın dərki" fonunda şəkillənsəydi, necə bir elm sahəsinə çevrilərdi. Bu zaman, fiqhimiz- dini hüququmuz necə şəkillənərdi, ilahiyyatımız necə formalaşardı, əxlaq elmi hansı istiqamətdə inkişaf edərdi və s. ?!

Nə üçün Quran və sünnənin QADINLAR tərəfindən şəkilləndirilən fenimist bir oxunuşu, dərki, bilimi mövcud deyil? Əgər olsaydı, nə baş verərdi?!

Bu gün əlimizdə olan dini biliklər toplusu cins, dil və düşüncə müstəvisində dini bilik sisteminə hakin olan "kişimərkəzlilik" gerçəyinin məhsulu, verimidirmi?! Bəlkə belədir?!

Zənnimcə, ədalət prinsipinin tələbinə əsasən, dini mətnlər, tekstlər həm kişilər, həm də qadınlar tərəfindən oxunmalı, dərk edilməli, anlaşılmalı, yozulmalıdır. Bu ikilik birgə olduğu təqdirdə, ədalət prinsipinə riayət edilmiş olacaq.

Hər iki cinsin müxtəlif bilik sahələrindəki həmin cinsin "düşüncə" məhsulu, verimi olan bir idraki sturktur daxilində və ya ən azından, meta-cins (cins ötəsi) şəklində "DİN" təfsir edilməlidir ki, hər iki cins öz fikri məhsulunu nümayiş etdirə bilsin.

Qadın insan haqlarının kişi dili, ədəbiyyatı, fəlsəfəsi, psixologiyası, düşüncəsi fonunda oxunması, anlaşılması, təfsir edilməsi nə qədər "ƏDALƏT" prinsipi ilə uzlaşa bilər?!

Dini mətnlərin epistemoloji (idraki) baxımdan "kişi dərki" ilə "qadın dərki" arasındakı fərqini görmək istəyiriksə, o zaman qadınlara dini mətn üzərində düşünmə, dərk etmə, oxuma, təfsir etmə, yozma hüququ tanınmalıdır ki, kişimərkəzliliyin formalaşdırdığı dini dərkin mahiyyəti bizlərə məlum olsun.

Artıq bu gün "kişi dərki" ilə "qadın dərki" arasında ciddi bir dialoqun yaranma zamanıdır. Hər iki cinsin dini mətn üzərindəki oxunuşu, dərki, təfsiri nəzərə alınmalıdır.

12. Müsəlman feministlər hesab edirlər ki, dini mətnlərdəki (Quran və sünnə) "qadın cinsi"nə dair məsələləri-hökmləri, hüquqları, öhdəlikləri kişilər deyil, qadınlar anlamalı, təfsir və şərh etməlidirlər. "Kişimərkəzli" bir ağılın belə bir durumda dini mətnlər barədə təqdim edəcəyi oxunuş, təsvir obeyktivliyi əks etdirməyə bilər. Hətta, bəzən "mənafelərin toqquşması" kimi həssas durumlarda kişilərin qadınlar barədə dini mətnlərdə qeyd olunan hökm və öhdəlikləri şüuri və ya qeyri-şüuri olaraq öz xeyirlərinə uyğun şərh edə bilərlər. Məsələn, kişilərin çıxarı olduğu bəzi hökm və öhdəlikləri aşağıdakı kimi sadalamaq olar:

*1. Çoxarvadlılıq;*

*2. Qadın tərəfindən nigahdaxili şərt qoyulması problemi;*

*3. Qadının icazəsiz evdən çıxması;*

*4. Kişinin cinsi tələbatı qarşısındakı hdəliyinin 4 ayla məhdudlaşdırılması;*

*5. Təlaqda səlahiyyətin kişidə* olması;

*6. Qadının evlənmədə ata və ya ata babasından icazə alması;*

*7. Qadınlarda mükəlləfiyyət çağının qəməri təqvimilə 9 yaşdan başlaması;*

*8. Qadının şəhadət verməsi;*

*9. Qadının irs payı;*

*10. Qadının diyəsi;*

*11. Qadının qəzavət etməsi;*

*12. Uşağın qəyyumluğu;*

*13. Ananın övlad hüquqları və s.*

13. Ümumi bir qaydadır ki, istənilən fikri cərəyanı təhlil edərkən ona "hamı-heç" məntiqi ilə yanaşmaq düzgün deyil. Belə ki, ya hamısı doğru olmalıdır, ya da heç biri doğru olmalı deyil. Bu, yanlışdır. Ola bilər ki, bəzi müddəaları doğru, bəziləri isə yalan olsun. Yaxud, bəzi dəyərləri əxlaqi, bəzi dəyərləri isə qeyri-əxlaqi olsun. Odur ki, bu dilemmanı kənara qoymayanacan, bir çox biliklərdən məhrum olacağıq. Feminizmə də yanaşanda, onun doğru müddəaları ilə yanlış müddəalarını, əxlaqi dəyərləri ilə qeyri-əxlaqi dəyələrlərini bir-birindən ayırd etməyi bacarmalıyıq. Deməməliyik ki, feminizmin ya hamısı doğrudur, ya da heç biri və yaxud, ya hamısı əxlaqidir, ya da qeyri-əxlaqi. Əfsuslar, feminizm çoxları tərəfindən dəyərləndirilərkən yuxarıda qeyd etdiyim dilemmadan çıxış edirlər ki, bu da yanlışdır.

14. Fəlsəfədə mübahisəli mövzulardan biri də ruhun cinsiyyətə malik olub-olmamasıdır. Belə ki, bəziləri iddia edirlər ki, ruhun cinsiyyəti yoxdur, nə kişidir, nə də qadın. Kişilik və ya qadınlıq fiziki bədənə aiddir, ruhda isə belə bir xüsusiyyət yoxdur. Bu iddianın əksinə olaraq rəqib tərəf hesab edir ki, ruhun cinsiyyəti var, yəni ortada kişi ruhu və qadın ruhu var. Deməк, ruh rəngsiz, surətsiz, cinsiyyətsiz deyil: ya kişi rəngi ilə boyalıdır, ya da qadın rəngi ilə. Onu da qeyd edim ki, kişilk və ya qadınlıq dedikdə bioloji, fizioloji xüsusiyyət nəzərdə tutulmur. Cinsiyyəti təkcə bioloji anlamada qavramaq yanlışdır. "Cins(sex) ilə "cinsiyyət kimliyi (gender)"ni bir-birindən ayırmalıyıq. Birinci bioloji, fizioloji, ikinci isə psixolojidir. "Gender" adamın cinsiyyət kimliyini təyin edir: qadın kimliyi, yoxsa kişi kimliyi. Bu əsasla, "gender" qadın və kişinin zahiri bədənindəki bioloji quruluşları ifadə etmir. Bu, onun cinsiyyət kimliyini ifadə edən bir termindir. Deyilənlərdən aydın olur ki, iki cür insan var: "kişi insan" və "qadın insan", baxmayaraq ki, hər ikisi də insandır.

Zənnimcə, ruhunun cinsiyyəti var, biz ruhları kişi və qadın olmaqla iki yerə ayıra bilərik. Fəlsəfədə bu müddəanı təsdiqləyən ciddi dəlillər var. Mən burada, deyilən müddəanı məntiqiləşdirmək üçün, sadəcə, bir zehni eksperimenti diqqətinizə çatdırmaq istəyirəm. Məsələn, fərz edin, bir ana dünyasını dəyişir və axirətə köçür. Ana ölərkən azyaşlı bir körpəsini arxada buraxır. Fərz edək, uşaq qəddar bir adamın əlinə düşür və o da hər gün ona olmazın əziyyətlər verir. Yenə fərz edək ki, Allah ananı bu səhnədən xəbərdar edir. Burada belə bir sual yaranır: Əgər ruhun cinsiyyəti yoxdursa və həmin ana fiziki bədənindən təcrid olunduğuna görə qadın cinsinə daxil deyilsə və nəticədə analıq da qadın cinsinə aid bir xüsusiyyətdirsə, bu zaman həmin ana ona göstərilən səhnə qarşısında nə kimi bir reaksiya göstərə bilər? İntuisiyalarımız bu barədə nə deyir? Siz necə düşünürsüz, sizcə, ana bu səhnəyə görə ruhən narahat olacaq, acı çəkəcək, yoxsa, bunu tamamilə adi qarşılayacaq və həmin körpəyə ana bağlılığını duymayacaq? Zənnimcə, bu eksperimenti zehnində canlandıran hər bir adam intuisiyasının tələbinə əsasən hökm edəcək ki, ana qeyd olunan səhnə qarşısında narahat olacaq, körpəyə olan analıq bağlılığı onu ruhən acı çəkməyə sövq edəcək.

İndi isə, gəlin müddəanın lehinə olan sadə bir arqumenti nəzərdən keçirək:

1. Məlum olduğu kimi, hər bir insanın bir kimliyi var.

2. Kimlik bir fərdin "kim" olmasını ifadə edən bir gerçəkdir. (Buna "gender" deyilir və insanın bioloji və fizioloji tərəflərini ifadə etmir.)

3. İnsan öldükdən sonra kimliyini əldən vermir. Belə ki, dünyada hansı kimliyə sahib idisə, ölümdən sonrakı dünyada da həmin kimliyə sahib olacaq. Yoxsa, məsələn, Sabir öldükdən sonra, daha özü ola bilməz. Özü ola bilməsi üçün gərək öz kimliyi olduğu kimi sabit qalsın.

4. Qadın və ya kişi hər biri bir insan olaraq özünəməxsus bir kimliyi vardır: qadın kimliyi və kişi kimliyi.

5. Məlum fəlsəfi və dini dəlillərə əsasən, Axirət həyatı maddi-fiziki həyat olmadığından, orada hansısa bioloji, fizioloji xüsusiyyəti özündə daşıyan cinsiyyətdən söz açmaq olmaz.

6. Deməli, bir qadın dünya həyatında hansı kimliyə sahibdirsə, axirət həyatından sonra da eyni kimliyə sahib olacaq. Bu kimlik onun cinsiyyətini (gender) ifadə edən bir gerçəkdir. Ruhun cinsiyyəti var dedikdə, məqsədimiz bu mənada olan cinsiyyətdir- kimlik cinsiyyəti. Bu əsasla, qadın dünyada hansı kimlik cinsiyyətinə sahib idisə, axirətdə də eyni kimlik cinsiyyətinə sahib olacaq. Həmçinin kişilər də bu qəbildəndir. Belə ki, dünya həyatındakı kimlik cinsiyyətləri olduğu kimi qalacaqdır.

15. Ənənəvi əxlaqla feminist əxlaq arasındakı fərq ondadır ki, birinci ədalətmərkəzlidir, ikincsi isə qayğımərkəzli. Yəni burada iki fərqli diskurs var, belə ki, biri ədalət dili (Language of justice) ilə ifadə olunur, digəri isə məsuliyyət dili (Language of responsibility) ilə. Kişimərkəzli diskursda əxlaqi dəyərlər ədalət və azadlıq ətrafında dövr edir, ancaq qadınmərkəzli diskursda isə şəxs ədalət və azadlığın dərdini çəkməkdən çox, özü ilə başqaları arasındakı əlaqəni qoruyaraq əxlaqi münasibətlərini "qayğı" üzərində tənzimləməyə çalışır. Qayğı əxlaqı (Ethics of care) özünü norma və qaydalar çərçivəsilə məhdudlaşdırmır, əksinə, ərdəm üzərində köklənən bir subyekt (Agent) kimi əxlaqi bir davranış sərgiləyir. Başqa sözlə, qayğı əxlaqı fərdin iç dünyasından qaynaqlanan bir əxlaqdır. İnsan bu əxlaq modelində iç dünyasını fəzilət və ərdəmlə (Virtue) bəzəyərək öz əxlaqi kimliyini formalaşdırmış olur və bununla da içdən qaynaqlanan bir hisslə əxlaqi mühakimələri həyata keçirir.

**Emin İmanlı**

# GƏNCİN DİGƏR İSTEDADLARI KİMİ QƏRARSIZLIQ İSTEDADI...

*Elə bir iman istəyirəm ki, həyatda olduğum müddətcə bitməsin...*




*Gənc gözəlliklərin, parlaqlıqların, yaxşı-lıqların, istedad və imkanların məcmusudur. O, qocalığa doğru getdikcə bu istedadlar, imkanlar davamlı olaraq qeyri-gözəlliyə doğru azalır. Hətta mənəvi baxımdan nə qədər irəli getsəniz, fəaliyyətiniz çox olsa, istedadınız, imkanlarınız davamlı olaraq bir o qədər azalır. İstedad çox mühüm şeydir. İstedad bacarıq deməkdir və bacarıq çox mühüm şeydir.*

*Gəncin vücudunda olan bütün bu müsbət, maraqlı və parlaq potensiyaya baxmayaraq, onun çox böyük bir problemi var. Bu, qərarsızlıq, səbatsızlıqdır. Tərəddüd ehtimalı yaş çoxaldıqda azalır. Diqqət edirsiniz? Bu problemi unutmayın. Özünüzdə və başqalarında bu problemə əlac edin. Elə bir iş görün ki, etiqadınızda səbat olsun. Baxın, görün, siz dua-larda nə qədər "səbat əl-yəqin" ifadəsini oxuyur sunuz! Cümə gününün səhər duasında oxuyu-ruq: "Bizə yəqində səbat, qərarlılıq və sırf ixlas əta et!" Ramazan duasında oxuyuruq: "İlahi, mən səndən elə bir iman istəyirəm ki, səninlə görüşənədək heç sonu olmasın! Səndən elə bir iman istəyirəm ki, həyatda olduğum müddətcə bitməsin. Bu imanı mənim üçün saxla. Canımı alıncaya qədər saxla". Yəni canımı imanlı olduğum halda al. "Hətta qiyamət günü məni (qəbirdən) qaldıracağın zaman belə imanla qaldır!" Bu duadır!*

*İmamın (ə) Əbu Həmzə Sumali duasında, bu mənəvi zənginlik, mənəvi əhval-ruhiyyə dolu halda Allahdan istədiyi budur. Bu məlum istəyin vacib ehtiyac olduğunun göstəricisidir. Diqqət edirsinizmi?*

*Gəncə səbat lazımdır. Bu səbat öz-özünə əldə olunmur. Onu tapmaq, əldə etmək lazımdır. Gənc daim tərəddüdə, qərarsızlığa məruz qalır. Əlbəttə, bütün cavanlar belə deyillər. Hər bir gəncin belə olduğunu demək istəmirəm. Hər halda bu qərarsızlıq istedadı da digər istedadlar kimi cavanlarda mövcuddur. Bu, bir mənada yaxşı istedad deyil. Əlbəttə, bir mənada da yaxşıdır. Bunun özündən də istifadə etmək olar. Davamlı olaraq daha yaxşılığa doğru, yüksəkliyə doğru getmək olar. Lakin ehtiyatlı olmaq lazımdır ki, bu yanlışlığa yönəlmək, sürüşkənlik vasitəsi, yoldan çıxmaq, Allahdan uzaqlaşmaq üçün bir dəstavüz olmasın. İnsanın özünü qorumalı olduğu uçurumlara yuvarlanması ilə nəticələnməsin.*

# İslam dininin nəzərinə görə, ağıllı insanı hansı xüsusiyyətlərinə görə tanımaq olar?

*Aqil o kəsdir ki, ona verilən öyüddən ibrət götürər və hər bir halda Allah zikrində olar. Bütün istedadlarını və gücünü Allaha bəndəlik yolunda işə salar.*

*Həzrət Peyğəmbərin (s) nəzərinə görə aqil insanın bir neçə xüsusiyyəti vardır:*

*1. Ən aqil insan o kəsdir ki, insanlara qarşı çox mülayim və mehriban olsun.*

*2. Ən aqil insan o kəsdir ki, Pərvərdigarını tanısın və əmrlərinə itaət etsin.*

*3. Həmçinin o kəs ki, düşmənini tanıyar və onunla müxalifətlik edər, hər kəsdən daha aqildir.*

*4. Aqil insanın dördüncü xüsusiyyəti budur ki, əbədi yerini (axirətini) tanısın və abad etməsi üçün səy göstərsin.*

*5. Ən aqil insan o kəsdir ki, bilər ki, hansı sürətlə axirətə tərəf hərəkətdədir və özünü axirət səfəri üçün hazır edər. Özü üçün azuqə götürər.*

*İmam Əli (ə) buyurur: "Ən aqil insan o kəsdir ki, bütün alçaqlıqlardan uzaq olsun".*

*İmam buyurur: "Hər kim özünü tərbiyə etməzsə, ağıldan bəhrələnməmişdir deməkdir".*

*İmam Əli (ə) buyurur: "Ən aqil insan o kəsdir ki, həyat məsələlərini ən yaxşı şəkildə proqramlaşdırar və axirətini islah etmək üçün ən çox hümməti göstərər".*

*Həzrət (ə) buyurur: "Aqil o deyildir ki, xeyiri şərdən ayırsın. Bəlkə aqil o kəsdir ki, iki şər arasında zərəri az olanı tanısın".*

*İmam Əli (ə) buyurur: "Ağılın zəkatı - nadanlara dözməkdir".*

*İmam Əli (ə) buyurur: "Səbir - örtən pərdə, ağıl - kəsici qılıncdır. Ona görə də öz əxlaqi eyblərini səbirlə ört, ağılla hava və həvəsinlə döyüşə qalx".*

*İmam Hüseyn (ə) buyurur: "Aqilin çətinliyi olsa qəmini ayıqlığı və uzaqgörənliyi ilə aradan aparar. Ağılını çarə düşünməyə məcbur edər".*

*İmam Əli (ə) buyurur: "Dünyaya bağlanmaq ağılı fasid edər, ürəyi hikmət eşitməkdən gücsüz edər və ağrılı əzaba bais olar".*

*İmam Əli (ə) buyurur: "Ən aqil insan o kəsdir ki, öz eyblərini görən və başqalarının eyblərini görməz olar".*

 İSLAM VƏ ELM İSLAM VƏ ELM

***Qərb dünyagörüşündə elmin qarşısına qoyduğu məqsədlər mənəvi çalarlardan xalidir və yalnız maddi xarakter daşıyır İslam dininin ilkin çağırışlarından biri insanları cəhalətdən qurtulub düşünməyə, təfəkkür etməyə, elmə yiyələnməyə dəvət etmək olmuşdur. Məhz əql, elm və düşüncə üzərində qurulan dünyagörüşü və bu dünyagörüşü üzərində qurulan həyat tərzi insanı çaşqınlıqlardan qoruya və onun sağlam həyat tərzinə zamin ola bilər.***



Elmə yiyələnmək, biliklər əldə etmək, düşünüb-daşınmaq çağırışı həm Qurani-Kərimin bir çox ayələrində buyurulmuş, həm də sevimli peyğəmbərimiz Həzrət Məhəmmədin hədislərində nəql edilmişdir. İslam dini elmi insan fəaliyyətinin aparıcı stimulu kimi təqdim etmişdir. Sevimli peyğəmbərimiz Həzrət Məhəmməd (s) buyurmuşdur: "Kim elm axtarmaq yolu ilə getsə, Allah onu cənnətə aparar. Həqiqətən mələklər qanadlarını elm əhlindən razılıq əlaməti olaraq yerə sərərlər. Doğrudan da, göy və yerdə olan hər bir şey elm axtarışında olan kəsin günahlarının bağışlanmasını istəyər, hətta dənizdə olan balıqlar belə. Alimin abiddən üstünlüyü on dördüncü gecədə ayın ulduzlardan üstünlüyü kimidir. Həqiqətən alimlər peyğəmbərlərin varisləridirlər. Çünki peyğəmbərlər dinar, dirhəm irs qoymurlar, onların irsi elmdir. Kim ondan bəhrələnərsə çoxlu nəsib əldə etmiş olar." (Üsuli-Kafi, c. 1, səh.95-96)

Həzrət Peyğəmbər (s) başqa bir hədisdə buyurmuşdur: "Elm axtarışında olmaq hər bir müsəlmana vacibdir. Həqiqətən, Allah elm axtaranları sevir."

İmam Baqir (ə) buyurmuşdur: "Elmindən bəhrələnən alim yetmiş min abiddən daha üstündür." İmam Sadiq (ə) buyurmuşdur: "Səhəri üç nəfərdən biri olaraq aç: alim, elm öyrənən və elm əhlini sevən. Bunlardan başqa bir kəs olma ki, onları sevməmək nəticəsində həlak olarsan. Elm və etiqad vəhdətdə əvəzolunmaz işlər törədə bilər". Tarixə nəzər saldıqda dinimizin elmə və maarifçiliyə nə qədər əhəmiyyət verdiyinin şahidi olarıq. Hələ İslam dininin yeni zühur etdiyi və təqib edildiyi vaxtlarda müsəlmanlar Mədinəyə hicrət etmiş və orada ilk gördükləri işlərdən biri təhsil ocağı açmaq olmuşdur. Avropada kitabxanaları barmaqla saymaq mümkün olan vaxtlarda Bağdadın xəlifə əl-Məmun tərəfindən yaradılmış "Müdriklər evi" kitabxanasında müxtəlif mövzulara dair 4 mln. kitab var idi. O dövrdə müsəlman alimləri ilahiyyat, fəlsəfə, ədəbiyyat, kəlam kimi elmlərlə yanaşı riyaziyyat, astronomiya, fizika, tibb və digər təbiət elmlərinə mükəmməl şəkildə yiyələnir, bu elmlərin inkişafına öz töhfələrini bəxş edirdilər. Lakin bununla belə, gözümüz önündə olan belə bir faktla üzləşməkdəyik ki, çağdaş zəmanəmizin bir çox elmi və texniki nailiyyətləri bilavasitə Qərb alimlərinin adıyla bağlıdır. Günümüzdə bu bir gerçəklik olaraq hamı tərəfindən qəbul edilir. Lakin elmin inkişafı tarixindən bu da məlumdur ki, Qərbdə renessans dövründən sonra inkişafa qədəm qoyan Avropa ölkələrinin elmi bazaları, mənbələri əsas etibarilə müsəlman Şərqinin orta əsrlərdə əldə etmiş nailiyyətləri olmuşdur. Tarixin şahid olduğu kimi, İslam mədəni bölgəsi həmin dövrlərdə elm və mədəniyyət sahəsində aparıcı rol oynayırdı. Müsəlman alimlərinin təbiətşünaslıq, xüsusən kimya sahəsində mühüm kəşfləri, ixtiraları olmuşdur. Onlar gümüş, nitrat, sulfat turşusu və s. birləşmələri hazırlamış, naşatır spirti, sülema, spirt (əl-kuhul), potaş (əl-qiyl), bura (əl-bura) və digər maddələri tapmış, bir sıra kimyəvi proseslərin ilk izahını vermişlər. Kimya sahəsində müsəlman alimlərinin elmi əsərləri uzun zamanlar Avropa dillərinə tərcümə edilərək mənbə əsərlər kimi geniş istifadə edilmişdir.

İmam Cəfər Sadiqin (ə) tələbələrindən olan Cabirin kitabları bu sahədə çox önəmli rol oynamışdır. Onun bir neçə elmi əsəri latıncaya tərcümə edilmişdir. Cabirin kitablarından ən məşhuru isə 1672-ci ildə fransız dilinə çevrilmişdir. Distillə, kristallaşma, ərimə, analiz və reaksiya kimi üsullardan ilk dəfə elmi şəkildə xəbər verən məhz Cabir olmuşdur. O, kimyəvi maddələri kəşf etmiş və onların üzərində elmi tədqiqatlar aparmışdır. Müsəlman alimləri bir çox başqa elmi sahələrdə də aparıcı rola malik olmuşlar. Belə ki, Məhəmməd Xarəzm (IX əsr) cəbr (əl-cəbr) elminin əsasını qoymuş, Bəttani, Ömər Xəyyam, Nəsirəddin Tusi və bir sıra digər görkəmli alimlər riyaziyyat və təbiət elmlərini zənginləşdirmişlər. Yerin Günəş ətrafında hərəkət etdiyini Əbu Reyhan Biruni (X-XI əsr) Kopernikdən 500 il əvvəl bildirmişdir. Əl-Uqlidisi adlı riyaziyyatçı alim 950-ci ildə yazdığı bir əsərində onluq kəsr təlimlərinin əsaslarını verəndən 635 il sonra holland riyaziyyatçısı S.Stevin (1548-1620) onluq kəsri elmə gətirmişdir.

Avropada Alhazen kimi məşhur olan ibn əl-Heysəm (965-1037) dördüncü

qüvvənin tənliklərinin həlli üsullarını göstərmişdir. Bu məsələ ilə 5 əsr yarım sonra italyan riyaziyyatçısı Kardano (1501-1576) maraqlanmışdır. Marağa Rəsədxanasının mühəndisi Kərimməddin Səlmasi 1266-cı ildə alman alimi Martin Bahayından 226 il əvvəl ilk coğrafi qlobusu hazırlamışdır. Tədqiqatlar göstərmişdir ki, Nyutonun korpuskulyar nəzəriyyəsi, həmçinin Harveyin qan dövranı nəzəriyyəsi, onların "kəşflərindən" 100-200 il öncə müsəlman alimləri tərəfindən işlənib hazırlanmışdır. Bu nailiyyətlər əqli elmlərdə - məntiq və fəlsəfədə də özünü göstərmişdir. Lakin təəssüflər olsun ki, son əsrlərdə həqiqi İslami dəyərlərin cəmiyyətdə zəifləməsilə müsəlman Şərqində elm də tənəzzülə uğramış, Avropasentrizm həyatın bütün sahələrində, xüsusilə elmdə özünə yer almışdır. Renessansla inkişafa qədəm qoymuş Avropa zaman-zaman İslam mədəni bölgəsini elm sahəsində qabaqlamış, öz yeni elmi və texniki nailiyyətlərilə ikinciləri geridə qoymuşlar. Bununla belə, qeyd etmək lazımdır ki, Qərbin elmi və texniki tərəqqiyə baxışları İslam dünyagörüşünün elmə baxışlarından əsaslı şəkildə fərqlənməkdədir. Şübhəsiz ki, hər bir insan gələcəyi haqqında düşünərkən elmi-texniki tərəqqiyə böyük ümidlər bəsləyir. Lakin Qərb dünyagörüşündə elmin qarşısına qoyduğu məqsədlər mənəvi çalarlardan xalidir və yalnız maddi xarakter daşıyır. Burada mənəvi meyarlar, ümumiyyətlə heç bir məna kəsb etmir. İslam nöqteyi-nəzərindən isə elm və texnikadan yalnız yüksək bəşəri ideallara çatmaq, insanların rifahını təmin etmək, çətinliklərini həll etmək, təbiət və cəmiyyətin xidmətində durmaq üçün istifadə edilməsi labüd sayılır ki, bunların da məğzini məhz mənəviyyat meyarı təşkil edir. İslam görüşündə cəmiyyətin inkişafı təkcə elmlə yox, həm də mənəvi-əxlaqi dəyərlər, bəşəriyyətin min illər boyu formalaşmış olan mədəni idealları, humanist fəlsəfi fikirləri, nəhayət onun ən ali meyar və metodu olan mənəviyyat prinsipilə bağlıdır. İslam əslində bütün bunların vəhdəti, insanın intellektual, emosional və mənəvi-əxlaqi inkişaf istiqamətlərinin birləşdiyi zirvədir. Bu zirvəyə doğru yüksələn insanın məqsədi onu fəth edərək kamilliyə



yetişib səadət əldə etməsidir. Bu cəhətdən, kamilliyə yetişmək üçün mühüm şərtlərdən biri isə məhz elmin insanlığa xidmət etməsi, onun insanın mənəvi ideallarına tabe edilməsidir. Belə ki, İslam insanlığın ülvi dəyərlərilə uzlaşmayan elmi qəbul etmir. İslamın qəbul edərək zəruri, vacib saydığı və insanları ona yiyələnməyə, ona sarılmağa, ondan bəhrələnməyə səslədiyi elm məhz bəşəriyyətin ülvi məqsədlərinə xidmət edən və onu kamilliyə doğru istiqamətləndirən elmdir. Əsrimiz kosmos əsridir. Lakin kosmik raket bizi o vaxt işıqlı sabaha apara bilər ki, onun sükanında mənəviyyat və insanlığın keşiyini çəkən təfəkkür dayanmış olsun. Belə olduqda raket vasitəsilə süni peyklərin Yerin orbitinə çıxarılmasına, insanların neçə-neçə zəruri tələblərinin ödənməsinə xidmət edəcək. Belə olmadıqda isə, o, ulduz müharibələrinə yol açan, bəşəriyyətin məhvinə yönələn niyyətlərin quluna çevriləcəkdir. Əsrimiz atom əsridir. Hamı bilməlidir ki, bu əsrdə mənəviyyata söykənən elmin həyatverici tərəfi - atom elektrik stansiyaları, neçə-neçə evə işıq gətirdiyi kimi, onun mənəviyyatsız, qaranlıq tərəfi - atom bombası Hirosima və Naqasaki əhalisi kimi insanlığı əbədi zülmətə qərq edən tərəfləri də vardır. Beləliklə, İslam dini elmi mənəviyyatsız, alimi mənəvi keyfiyyətsiz təsəvvür etmir. Bu, əslində hər bir qərəzsiz, vicdanlı insanın etiraf edəcəyi bir həqiqətdir. Mənəviyyatdan xali olan elmin bəşəriyyətə vurduğu ölçüyəgəlməz zərbələrin şahidi olan Rusiya məktəblərindən birinin müdirinin söylədikləri buna bariz misaldır. O, yeni işə qəbul edilən müəllimlərə müraciət edərək aşağıdakıları söyləyir: "Hörmətli müəllim, mən alman konslagerini yaşamışam. Mənim gözlərim adi gözlərin görməli olmadığı şeyləri görmüşdür. Alim mühəndislər tərəfindən düzəldilən qaz kameraları, təcrübəli həkimlər tərəfindən zəhərləndirilən uşaqlar, klassifikasiyalı tibb bacıları tərəfindən öldürülən körpələr, ali təhsil ocaqlarının məzunları tərəfindən yandırılıb güllələnən qadın və uşaqlar. Ona görə də mən təhsilə inanmıram. Xahiş edirəm, şagirdlərinizə insan olmağı öyrədin. Onları insani keyfiyyətləri olmayan məxluqatlara döndərməyin".

İslama görə, öz-özlüyündə elm və texnika mahiyyət etibarilə xidmət etdiyi məqsədlərə münasibətdə neytraldır və buna görə də həm yaradıcı və qurucu, həm də destruktiv və dağıdıcı məqsədlərə yönəldilə bilər. O həm insanın özünü tapmasına, həm də özündən uzaqlaşmasına xidmət etməyə qadirdir. Məhz bu səbəbdən də İslam bir tərəfdən mənəviyyatsızlıqla mübarizə apardığı kimi, elmsizliklə də amansız mübarizə apanr, digər tərəfdən də mənəvi ruha söykənən, yaradıcı və qurucu, insanlığa xidmət edən, insanlığın, bəşər mənafelərinin keşiyində dayanan və ülvi məqsədlərə yönələn elm və texnikanı dəstəkləyir, insanları ona yiyələnməyə təşviq edir və bu ruhda elmə yiyələnməyi hər bir müsəlman kişi və qadına vacib buyurur! Bu tələb, İslamın başlıca tələblərindən və ülvi prinsiplərindən biridir. Belə ki, İslama görə kamilliyin bir qanadı mənəviyyat, digər qanadı isə elmdir, bilikdir. Bunlar yalnız vəhdət halında kamil insan yetişdirə bilər, onu səadətini təmin edə bilər. Bu qanadlardan biri olmadan isə insan kamillik ülviliyinə pərvaz edə bilməz. Allah-Təalanın buyurduğu ayə məhz bu həqiqəti tərənnüm etməkdədir: "Heç bilənlə bilməyən (elm əhli ilə elmsiz, biliksiz) bir ola bilərmi?" ("Əz-Zumər", 9) Əlbəttə, ola bilməz! Allah bizləri bilənlərdən, elm əhlindən qərar versin və elmimizi saf mənəviyyatımızla vəhdətdə ülviliyə, kamilliyə, səadətə xidmət edən bir vasitə eləsin. AMİN!

**Elşən Mustafaoğlu**

# HİCABIN ƏSİL SİMASI



**Onlar nə etməlidir, azad şəkildə açıq-saçıq vəziyyətdə gəzib-dolanmalı, yoxsa hicab və örpək altında əsir saxlanılmalıdır?**

Son dövrlərdə mübahisə mövzusuna çevrilən məsələ qadının cəmiyyət arasında yarımçılpaq və ya örpəklə zahir olmasında deyil, kişilərin onlardan hansı şəkildə ləzzət almalarının qanuni olub-olmamasındadır. Kişinin haqqı vardırmı ki, hər bir yerdə hər bir qadından-zina istisna olmaqla-bacardığı qədər ləzzət alsın? Bu məsələnin əsil məğzinə və ruhuna nəzər yetirən İslam dini bu sualların cavabında qətiyyətlə dayanır. Şəriət baxımından kişilər yalnız ailə mühitində, izdivac çərçivəsində və bir sıra ağır iltizamlarla qadından qanuni həyat yoldaşı kimi ləzzət ala bilər. Amma ictimai mühitdə yad qadınlara hər hansı bir cinsi və intim məqsədlərlə yanaşmaq qəti qadağandır. Qadınların da ailə mühitindən kənarda kişilərə bu məqsədlə yanaşmasına heç bir şəkildə icazə verilmir.

Bəli, burada belə bir sual qarşıya çıxır ki, qadınlar nə etməlidir? Onlar örtüklə çölə çıxmalıdır, yoxsa yarımçılpaq vəziyyətdə? Yəni diqqət mərkəzində olan məsələ qadınların özüdür. Bəzi hallarda bu məsələyə çox ürək yananlıqla yanaşılır və qadınların hüquq və azadlığı ortaya atılır. Onlar nə etməlidir, azad şəkildə açıq-saçıq vəziyyətdə gəzib-dolanmalı, yoxsa hicab və örpək altında əsir saxlanılmalıdır?

Qeyd edək ki, məsələnin əsas məğzi və mətləbin batini tam başqa bir şeydir. O da bundan ibarətdir ki, görəsən kişilər qadınlardan cinsi bəhrələnmədə-zina istisna olmaqla-cinsi və intim ləzzətlərdə mütləq azadlığa malikdirlər, yoxsa yox? Yəni burada faydalanan kişilərdir, yoxsa qadınlar? Cavabında deməliyik ki, bu məsələdə kişilər qadınlardan daha çox istifadə edirlər. Vill Dorantın dediyi kimi: "Qadın paltarlarının qısa olması dərzilərdən başqa hamı üçün bir nemətdir."

Deməli, əsas məsələ cinsi ləzzətlərin ailə mühiti, qanuni həyat yoldaşları və ər-arvad münasibətləri ilə məhdudlaşması və ya bu ləzzətlərin ictimai mərkəzlərə də çəkilməsi ilə əlaqədardır. İslam birinci fərziyyənin tərəfdarıdır.

İslam nöqteyi-nəzərindən cinsi ləzzətlərin ailə mühitində və qanuni həyat yoldaşı ilə məhdudlaşması ruhi təsir baxımından cəmiyyətin psixoloji sağlamlığına kömək edir, məişət münasibətləri baxımından ailə üzvləri arasında rabitələri möhkəmləndirir, ər-arvad arasında isə tam səfa-səmimiyyət bərqərar edir. İctimai cəhətdən araşdırdıqda da görürük ki, bu məsələ cəmiyyətdəki fəal və işgüzar qüvvələrin qorunub saxlanmasına, onlardan lazımınca səmərəli istifadə olunmasına səbəb olur, qadınların öz ərləri qarşısındakı vəziyyətinə gəldikdə isə, onun mənəvi dəyərinin yüksəlməsi ilə nəticələnir.

Bizim nəzərimizə görə, İslamda örpəyin səbəb və fəlsəfəsi bir neçə şeydən ibarətdir:

-Psixoloji və ruhi səbəblər;

-Ailə-məişət münasibətləri;

-İctimai səbəblər;

-Qadın hüququnun qorunması və onun mənəvi dəyərinin yüksəldilməsi.

Örpək haqqında sadalanan yuxarıdakı səbəbləri izah etməzdən qabaq qeyd etməliyik ki, İslamda hicabın mənşəyi bir sıra ümumi və əsaslı məsələlərdən ibarətdir. Belə ki, İslam nəzərindən cinsi ləzzətlərin bütün növləri-istər baxmaq, istər ləms etmək, istərsə də sair növləri-ailə mühitinə məxsus olmalı, ər-arvadlıq münasibətləri çərçivəsində və qanuni şəkildə qalmalı, ictimaiyyət isə tamamilə fəaliyyət və əmək meydanına çevrilməlidir. Müasir dövrdə işi və fəaliyyətləri cinsi ləzzətlərlə bir-birinə qarışdıran qərb cəmiyyətlərinə hakim olan sistemlərin əksinə olaraq İslam istəyir ki, bu iki mühit bir-birindən tamamilə ayrı olsun.

Ustad Mütəhhəri

# İNANC BİR LÜKSDÜR

***Britaniyalı yazıçı, bəstəkar, müğənni John Lennonun belə bir sözü var, (John həm də 60-70-ci illərdə "hippi" fəlsəfi hərəkatının simvolu və ən tanınmış üzvlərindən biri olub) deyir:***

***"Siz gözəl və əsrarəngiz bir şey edirsinizsə, lakin heç kəs buna diqqət yetirmirsə, qətiyyən məyus olmağa dəyməz. Qətiyyən! Baxın, Günəşin çıxması dünyadakı ən gözəl mənzərədir, amma nə olsun? İnsanların əksəriyyəti bu an yuxuda olur".***



İstisnasız olaraq (!) bütün insanların fərqlənməyə, seçilməyə, görülməyə və diqqətə çox ciddi ehtiyacı var. Kiminsə bunun üçün lazımı şəraiti (potensialı, maddi və mənəvi imkanları) olmayanda o, istər-istəməz qeyri-sağlam yollarla fərqlənmək məcburiyyətində qalır. Bəziləri, hətta qədim yunanlı Herostrat kimi məbədi də yandırmağa hazırdır, yetər ki, hamı onu görsün, yetər ki, hamı ondan danışsın.

İnsanların tez-tez depressiyaya düşməsi, tənhalığa çəkilməsi, hamıdan uzaqlaşması və s. əsasən eyni səbəbdən qaynaqlanır: onlar diqqət istəyir, onlar görülmək arzulayır. Hə, çörək haqqı, o qədər, daha aydın görünmək üçün gizlənənlər gördük ki... Getmək istəyən səssiz-səmirsiz çəkib gedər də, niyə tez-tez "gedirəm" deyib baş-beyin aparsın ki? İnanın, "gedirəm" psixoloji hədədir, "məni saxlayın" deməkdir. Və siz də saxlayın beləl追rini, çünki getmək beləl ri üçün ölümə bərabərdir.

İnanclı insanda bu hal az baş verməlidir əslində, çünki o, Rəbbinin onu gördüyünə (!) iman edib ("O, eşidən və görəndir!" - Qurani-kərim). Məhz bu səbəbdən insanların diqqətsizliyi inanclı insanı narahat etmir, ən çətin hallarda belə: "Qoy heç kim bilməsin, Pərvərdigarım ki bilir", - deyib sakitləşir. Amma hamının bu lüksü yoxdur axı, bir çox problemlərin mənşəyi də elə bu lüksün olmamasıdır. Ona görə, əminliklə demək olar ki, inanc həm də bir lüksdür!

Bəzən düşünürəm ki, məhz inanc lüksü idi şəhid Mübarizi mübariz edən amil. Başqa nə ola bilərdi ki? Və bəzən düşünürəm ki, o, döyüşərkən özünü məhz Allahının mərhəmətli və şəfqətli baxışları altında hiss edirmiş, axı başqa motivasiya yox idi, axı onu o zaman orada Allahdan başqa heç kim görmürdü.

Təsəvvür edin: Mübariz qaşlarını çatıb, əlində snayperi, avtomatı, qəfil "ya Allah!" deyərək düşmənin üstünə şığıyır, döyüşür, döyüşür, düşmənin bir hissəsini məhv edir, ayaq saxlayır, az da olsa qəlbi sərinlik tapır, yenə qalxır, yenə döyüşür, döyüşür... yaralanır, yaralanır, yerə yıxılır... və Allah baxır... həmən günlərdə, Mübariz üçün yazmışdım bu iki misranı:

Sən nəfsinə yiyə dura bilmirsən,
o isə qeyrətinə yenildi...

Bu yerdə gəlin, John Lennonun fikirlərini bir də təkrarlayaq:

"Siz gözəl və əsrarəngiz bir şey edirsinizsə, lakin heç kəs buna diqqət yetirmirsə, qətiyyən məyus olmağa dəyməz. Qətiyyən. Baxın, günəşin çıxması dünyadakı ən gözəl mənzərədir, amma nə olsun? İnsanların əksəriyyəti bu an yuxuda olur".

Maraqlı motivasiyadır, fəqət mən bu fikri oxuyanda nədənsə imam Əli (ə) və o həzrətin günəşlə olan bu söhbətini xatırladım:

"Ey günəş, heç oldumu məndən tez oyandığın?!"

Nə isə, sözüm bunda deyil.

Yaxınlarda sosial şəbəkələrdə belə bir maraqlı məsələ müzakirə olunurdu: Riki Cervers deyib: "Tanrı varsa, niyə məni ateist etdi?" Başqa sözlə: "Mən ateistəmsə və Tanrı mənim ateistliyimə mane ola bilməyibsə, demək, o yoxdur!"

İlk olaraq onu deyim ki, sosial şəbəkələrdə belə maraqlı və düşündürücü suallar görəndə ürəyim açılır, kaş ətrafında ajiotaj yaranmaya, qırğın düşməyə, təmkinli, səviyyəli müzakirəsi də ola. Əfsus ki olmur. Əslində, bəzilərinin bu kimi dərin mövzulara yer ayırması da nadir

haldır, çox təəssüf ki, müsəlman gəncinin bu gün müzakirə etdiyi mövzular daha çox belə mövzular olur:

"Əli (ə) xeybər qalasını iki əli iləmi qaldırıb, yoxsa iki barmağı ilə?".

Dəyişən nədir axı? Bu mövzunun həyati əhəmiyyəti nədir?! Ümumiyyətlə, çox əvvəllərdən düşünürəm, niyə imam Əlinin məhz pəhlivanlığı xüsusi canfəşanlıqla qabardılır, axı bu mədh bəşəriyyətə nə verir? Onun pəhlivanlığının bizim tərəqqi və təkamülümüzə olan töhfəsi nədir?! Sizə də elə gəlmirmi ki, imam Əlinin müdrikliyi, ədaləti, hikməti və s. büzüşüb, onun pəhlivanlığının kölgəsində qalır?! Niyə axı Əli (ə) deyəndə ağıla ilk olaraq müdrik, təmkinli, ədalətli, uzaqgörən rəhbər yox, nərə çəkən pəhlivan gəlməlidir? Bəlkə mən anlaya bilmirəm, nə bilim...

Məsələn, təsəvvür edin, bir dostumuz xeyli tədqiqatdan sonra bir uzun yazı yazıb, imam Əlinin (ə) xütbələrindən çıxarış edərək bugünkü dünya üçün yeni bir həyat konsepsiyası hazırlayıb, sonra başqa bir dost da buna qarşı çıxıb, öz arqumentlerini irəli sürərək göstərib ki, burada filan nüanslar çatmır. Və bu müzakirələr sosial şəbəkələri bürüyüb... Niyə belə olmur axı?!

Tutaq ki, yazdıq-pozduq, sübut etdik ki, peyğəmbərdən sonra rəhbər olan Əli (ə) idi və Əlini (ə) 1400 il sonra o kürsüyə çıxartdıq, nə olacaq? Nə baş verəcək? Dava məgər kürsü davasıdır? Vallah, kənardan izləyənə elə gəlir ki, dava məhz kürsü davasıdır. Əlinin (ə) dava etmədiyi kürsünün davasını bizmi edirik?! Nə baş verir?! Bizə Əlinin (ə) dünyaya təqdim etdiyi ilahi konsepsiya lazımdır, ya onu kürsüyə oturdmaq? Bax, bu da anlaya bilmədiyim başqa bir mövzudur.

"İsrafçılıq etməyin!" - bu da başqa bir ilahi əmrdir. İsrafçılıq təkcə krantın suyunu çox axıtmaq, süfrələrimizi həddən ziyadə zəngin etmək, yaxud da ehtiyacımızdan qat-qat artıq pal-paltar almaq deyil ki. Ən böyük israf - zamanın israfıdır. Və baxırsan ki, müsəlman gənci həyatı qədər qiymətli olan bir fenomeni – zamanını, tutaq ki, hansısa məddahın hansısa xətasına həsr edib; o, (və onun kimi onlarla gənc) saatlarla, bəli, məhz saatlarla, hətta günlərlə bu haqda yazır, pozur, asır, kəsir, birini söyür, digərini haqq-hesab çürütməyə çağırır... Allaha pənah, nə baş verir, gənclər?!



Ümumiyyətlə, kənardan diqqətlə izləyəndə görürsən ki, əhalisinin böyük qismi müsəlman olan (!) Azərbaycanda dindar və qeyri-dindar zümrə arasında olan fərq dərhal nəzərə çarpacaq qədər böyükdür. Bunu onların danışıq tərzi, düşüncələri, dərdləri, problemləri, bir-birinə münasibətləri, hətta sosial şəbəkələrdəki paylaşımları da aydın göstərir. Qəribədir, eyni məmləkətdə yaşayasan, bu qədər fərqli dərdlərin ola? Arada dərin bir uçurum var; sanki dindarlar bu xalqın insanı deyil, onları buraya haradansa başqa bir yerdən gətirib yerləşdiriblər. Nədən qaynaqlanır bu uçurum? Dindarlarmı çox marginallaşıb, xalqmı çox dinsizləşib... Bu da başqa bir qaranlıq mövzudur.

Allah özü kömək olsun. Qanınınızı çox qaraltmadan keçim Rikkinin sözünə. Demək, Rikki deyir: "Tanrı varsa, niyə məni ateist etdi?" Yəni: "Mən ateistəmsə və Tanrı mənim ateistliyimə mane ola bilməyibsə, demək, o yoxdur!"

Maraqlı söhbətdir, fəqət panikaya gərək yoxdur, gəlin sakit-sakit təhlil edək:

Əvvəla, bu tezisin qarşısında belə tezislər də çıxarmaq olar:

1)Tanrı ağlımıza gəlibsə, deməк ki, o var!

2) Tanrı yoxdursa, niyə qəlbimizdə onu axtarış hissi var?

İkinci tezis Tolstoyundur. Bəli, Tanrı yoxdursa, bəs o bizim ağlımıza hardan, necə gəlib, niyə bu haqda danışırıq, niyə onu axtarırıq? (Və ya: ağlına tanrı gələn ilk insanın ağlına bu haradan gəlib?)

"Onu insan özü uydurub" deyə bilərsiniz, amma filosoflara görə varlıq aləmində mütləq mənada "uydurulmuş" bir şey yoxdur, ola bilməz. Mütləq yoxluq uydurulub varlıq ola bilməz. Uydurulmuş şey əslində var olan bir şeyin şişirdilmiş, bəzədilmiş, başqa şəklə salınmış formasıdır. Onun əsli (kiçik forması, fərqli forması) hardasa var - olmalıdır. Bu tezisi yadda saxlayaq:

"İnsan zehninin, mütləq yoxluqdan varlıq uydurmağa gücü yetmir".

Demək, "tanrının ağıla gəlməsi" dolayısıyla onun varlığına işarədir. Ola bilsin o, bu gün bəşərin bildiyi, inandığı kimi deyil (fərz edək ki, bu belədir), lakin əsas odur ki, o mütləq var!

Rikki deyir: "niyə tanrı məni ateist etdi?" Bu sualında isə Rikki daha çox fatalistlər kimi çıxış edir, halbuki insanı ateist və ya dindar, alim və ya cahil, xeyirxah və ya əclaf, qəddar edən Tanrı deyil! Din təlimlərində də keçdiyi kimi, bir alın yazısı varsa da onun qələmi insanın öz əlindədir!

**İlqar Kamil**

# İSLAM RADİKALİZMƏ "YOX!" DEYİR

***Onlar Allahın nurunu (islam dinini) öz ağızları (öz iftiraları və şər sözləri) ilə söndürmək istəyirlər. Allah isə - kafirlərin xoşuna gəlməsə də, öz nurunu (dinini) tamamlayacaqdır.****(Saff,8).*

Radikalizm hər hansı bir zorakılıq, qabalıq, öz rəyini təəsübkeşliklə qəbul edib başqalarının fikrinə əhəmiyyət verməmək və fikrimizdə olan düşüncəni hansı yol ilə olursa olsun qəbul etdirməyə deyilir.

İslam dini hər növ zorakılığa qarşıdır və Qurani-kərimi diqqətlə mütaliə etsək görərik ki, bu müqəddəs kitabın müxtəlif ayələrində radikalizm və zorakılığın əleyhinə çoxlu sayda cümlələr zikr olmuşdur.

İslam dini elm, məntiq, əxlaq, ədalət və doğruluq dinidir. Qurani kərimin ilk nazil olan ayəsi də "öldür" sözü ilə deyil, məhz "oxu" sözü ilə başlayır. Bu,islamın elm və məntiqə əsaslandığının göstəricisidir.

**Nə üçün bəziləri İslam dinini radikalizm ilə əlaqələndiriblər**

Bildiyimiz kimi müqəddəs islam dini sonuncu səmavi dindir. Hər bir dövrdə olduğu kimi yaşadığımız əsrdə də islam düşmənləri var və onlar daima haqq olan islam dininə ləkə vuraraq islamı insanların gözündə kiçiltmək istəyirlər. Islamı radikal bir din kimi tanıtdıranlar elə bu yola qulluq edənlərin sırasındadır. Onlar müxtəlif bəhanələr gətirib, islam dinini radikal bir din kimi tanıtdırmağa çalışırlar. təəssüflər olsun ki, islamdan xəbəri olmayan bəzi insanlar da, məlumatsızlıq ücbatından onlara inanırlar. Aşağıda həmin bəhanələrin bəzilərini gətirir və o bəhanələrin heç bir məntiqə əsaslanmadığını qısa olaraq isbat edəcəyik.



**1- Müharibələr**

İslam düşmənlərinin fikrinə görə, Peyğəmbərin (s) sağlığında baş vermiş müharibələr islamın radikal bir din olduğunu sübut edir. Onların fikrinə əsasən insanlar həzrət Muhəmmədin (s) dinini qılınc yolu və zorakılıq nəticəsində qəbul ediblər.

Buna cavab olaraq onu deyə bilərəm ki, islam tarixini diqqətlə mütaliə etsək, görərik ki,Peyğəmbər (s) heç vaxt ilk hücum çəkən şəxs olmayıb və Həzrət Muhəmmədin (s) dövründə baş vermiş müharibələrin hamısı özünü müdafiə xarakteri daşıyıb. Yəni islam düşmənləri müsəlmanlara hücum çəkib və təbii ki, Peyğəmbər (s) əlində qılıncla müsəlmanları qətlə yetirmək istəyənləri gül ilə qarşılayası deyildi. Bəli, Peyğəmbərin (s) vəfatından sonra müxtəlif dövrlərdə müsəlmanlar ilə digər dinə mənsub olanlar, hətta müsəlmanların özlərinin arasında çoxsayda müharibələr baş verib. Bu müharibələrin bəzilərində müsəlmanlar ilk hücum çəkən olub. Bu o demək deyil ki, həmin müharibələrə Peyğəmbərin (s) razı olub. Əgər özünü Peyğəmbərin (s) davamçısı hesab edən bir şəxs minlərlə günahsız insanı qətlə yetirsə, bunun Peyğəmbərlə (s) heç bir əlaqəsi yoxdur. Misal üçün Hitlerin törətdiyi müharibədə milyonlarla insan həlak oldu. Həmçinin Xaç yürüşlərində çoxsayda insanlar qətlə yetirildi. Sizcə bu müharibələri həzrət İsa (ə) və onun dini ilə əlaqələndirmək doğrudurmu? Təbii ki, yox. Hitler özünü xristian adlandırsada o, həqiqətdə İsanın (ə) yolunu getmirdi.

**2- İslam şəriətindəki hökmlər**

İslam düşmənləri, islam şəriətindəki qisas kimi bəzi şəri hökmləri bəhanə gətirib, islamı radikal bir din kimi tanıtdırmağa çalışırlar.

Hər bir ağıllı insan qəbul edir ki, həqiqi dində əql və məntiqə söykənmiş qayda və qanun olmalıdır. Əgər qanun olmasa camaat azar, fəsad çoxalar. Təsəvvür edin ki, hər kəs istədiyini etsə cəmiyyətin həyat tərzi necə olar? Misal üçün adi sözə görə insanlar bir birini öldürə və bunu qarşısını alan bir qanun olmuya. Məhz islam şəriətindəki mövcud olan qisas hökmü də bu cür özbaşnalığın qarşısını almaq üçündür.

**3- Günümüzdəki islam adı altında terror törədənlər**

Təəssüflər olsun ki, bəzi özünü müsəlman hesab edənlər, islam bayrağı adı altında dünyanın müxtəlif yerlərində qətllər, teror aktları törədir və bu işlə islamı insanların gözündə

radikal din kimi tanıtdırırlar. Başda qeyd etdik ki, özünü Peyğəmbər (s) davamçısı hesab edən və əlinə silah alaraq müharibəyə qalxıb məsum insanları qətlə yetirənlər əslində Peyğəmbər (s) davamçısı deyil. Məsum insanları qətlə yetirənlərin nə islam və nədə Peyğəmbərlə (s) heç bir əlaqəsi yoxdur. Oyaq və dünya prosesindən məlumatı olan insanlar yaxşı bilirlər ki, islam adı altında terror aktları törədənlərin yaradıcıları, əslində elə islam düşmənləridir.

**4- Bəzi quran ayələri var ki, Allah kafir və müşrikləri qətlə yetirməyi əmr edir.**

Qurani kərimin bəzi ayələrində Allah-taala müsəlmanlara əmr edir ki, Müşrik və Kafirləri öldürün. İslamı radikal bir din kimi tanıtdıranlar bu ayələri öz məkrli hədəflərini həyata keçirmək üçün dəlil gətirirlər.

Cavab: Bu ayələr xüsusi bir şərait və dövrdə nazil olub. Ayələrin nə üçün nazil olduğu və həmçinin açıqlamasına diqqət yetirsək, görərik ki, bu hökm Peyğəmbərlə (s) sülh müqaviləsi imzaladıqdan sonra, əhdlərini sındırıb Peyğəmbərə (s) hücum kəçən münafiq və kafirlərə aiddir.

Əgər Kafir və Münafiqlər müsəlmanlara hücum edir və ya hücum çəkməyə hazırlaşırsa, onda müsəlmanların sakit qalması məntiqsiz hesab olardı.

**5- İslam dinindəki hicab kimi bəzi vacib olan əməllər.**

Az öncə qeyd etdik ki, qanunun olması zəruridir. İslam dinində bəzi qanunlar var ki, onun icrası vacibdir. Misal üçün qadınların hicaba riayət etməsi. Bəzi qanunlar da var ki, insan onun qarşısında azaddır. Məsələn qisas almaq qanunu kimi. Qanunsuzluqla yaşayışın səhv olduğunu heç kim inkar edə bilməz. İslam düşmənləri çalışır ki, islamda bəzi vacib olan hökmləri insan haqlarının pozulması kimi qələmə versin və bununla da islamı radikal bir din kimi tanıtdırsın.

Cavab: Əgər bir qadın şəxsi iradəsi ilə islam dininin hökmü ilə yaşamaq istəyir, namaz qılır, həcc ziyarətinə gedir, oruc tutur, hicaba riayət edir və. s,bunun nəyi zorakılıqdır?! Əslində hicab qadın üçün azadlıqdır. Həmçinin İslam dinində mövcud olan hicab və digər hökmlərin fəlsəfəsini dərk etsək görərik ki, bu hökmlər əslində sağlam cəmiyyətin formalaşmasını təmin edir.

İslamda dinində əxlaq və yaxşı davranışa olan münasibət

İslam dini əslində insanları mehribançılıq, dostluq, doğruluq, vəfa və bir çox bəyənilmiş xüsusiyyətlərə dəvət edir. Bunun sübutu olaraq, aşağıda bəzi Quran ayələri, hədislər və tarixi faktlara işarə edirik.

**1- Quran ayələri**

a) Sizə özünüzdən bir peyğəmbər gəldi ki, sizin əziyyətə düşməyiniz ona ağır gəlir, o sizdən (sizin iman gətirməyinizdən) ötrü təşnədir, möminlərlə şəfqətli, mərhəmətlidir! (Tövbə.128).

b) Həqiqətən də, sən böyük əxlaq sahibisən! (Qələm.4).

c) Hər kəs bir kimsəni öldürməmiş və yer üzündə fitnə-fəsad törətməmiş bir şəxsi öldürsə, o, bütün insanları öldürmüş kimi olur. Hər kəs belə bir kimsəni diriltsə (ölümdən qurtarsa), o, bütün insanları diriltmiş kimi olur. (Maidə,32).

d) Səni də aləmlərə ancaq bir rəhmət olaraq göndərdik. (Ənbiya,107).

**2- İslami rəvayətlər**

a) Peyğəmbər (s) müsəlmanlara əmr edirdi ki, kafir və münafiqlərlə döyüşəndə onları qətlə yetirmədən öncə haqqı çatdırıb, onları islama dəvət edin. Necə ki, Allah Rəsulu (s) imam Əliyə (ə) buyurur: Ey Əli (ə) bir nəfəri hidayət etməyinin savabı, günəş saçan bütün əşyaların sayından çoxdur.

b) Peyğəmbər (s) buyurur: Mən ən üstün əxlaqı kamil etmək üçün Peyğəmbərliyə seçildim.

c) Peyğəmbər (s) buyurur: Öz davranışınızı düzəldin,qonşularınızla mehriban olun və qadınlarınıza hörmət edin ki, hesab-kitabsız cənnətə daxil olarsiniz.

d) Peyğəmbər (s) buyurur: Bilirsinizmi, ən yaxşı insanlar kimdir? Sizin içərinizdəki ən yaxşı əxlaq sahibi olan şəxs. Onlar ki, xoş xasiyyətlidir, başqalarına əziyyət vermir, başqaları ilə yaxşı dostluq əlaqəsi qurur...

**3- Tarixi faktlar**

a) İslam Peyğəmbəri Məkkəni fəth edəndə hətta qatı düşmənlərinə belə rəhm etdi. O cümlədən Əbu-Sufyan,Hind və.s.

b) Peyğəmbər (s) Qureyş tayfasının kafirləri ilə sülh bağlayır,onlarla müharibəyə qalxmır.

c) Peyğəmbər (s) dövründəki yəhudilərlə sülh müqaviləsi bağlayır və onlarla müharibəyə qalxmır.

d) Tarixi faktlarda qeyd olunub ki, Peyğəmbər (s) müxtəlif dinə mənsub olanların inadkarlığına səbr edirdi.

e) İmam Əli (ə) yaxın dostlarına tövsiyə edirdi ki,insanlarla din və adət-ənənələrinə uyğun olaraq davranın.onların şəxsiyyətlərini qoruyub saxlasınlar....

Həmçinin İmam Əli (ə) Maliki Əştəri misrə göndərəndə ona tövsiyə etdi ki, təqvalı olsun, ədalət və əxlaqla davransın, yekəxanalıqdan uzaq olsun, insanların düşüncə və sözünə əhəmiyyət versin.

**Peyğəmbərin əxlaqı**

***Qurani-kərimdə Allah peyğəmbərə (s) xitabən buyurur: "Həqiqətən də, sən böyük əxlaq sahibisən". Böyük əxlaqa sahib olan şəxs, heç vaxt radikal ola bilməz. Tarixi mütaliə etsək, İslam Peyğəmbərinin (s) həqiqətəndə ən üstün əxlaqa sahib olduğunun başa düşərik. Tarixçilər islam peyğəmbərinin bir çox müsbət xüsusiyyətlərə malik olduğunu vurğulayıblar. Aşağıda onlardan bəzisini qeyd edirik.***

***1- Səhvlərə göz yumur və tollerant bir şəxsiyyət idi***

***2- Yumuşaq davranışlı idi***

***3- Bütün insanlara qarşı sevgi və məhəbbət bəsləyirdi***

***4- Çalışırdı ki, hər kəsdən qabaq salam versin. Hətta uşaqlara belə...***

***5- Gülər üzlü və mehriban idi***

***6- Başqalarının səhvinə göz yumur, onları bağışlayırdı***

***7- Təvazökar idi və Kasıblarla birgə torpaq üzərində oturur, onların vəziyyətindən xəbərdar olurdu.***

**Kərbəlayi Elçin Əliyev**

# ƏRBƏİN DƏRSLƏRİ

***Ərbəin günü İmam Huseynin (ə) şəhadətinin qırxıncı günüdür. Aşura və Ərbəin günləri Məhərrəmlik dönəminin iki ən mühüm günləridir. Peyğəmbər (s) ümməti, Əhli-Beyt (ə) aşiqləri məhərrəmlik dönəminə məhərrəm ayı başlayandan, yəni, İmam Huseyn (ə) və əshabının şəhid olduğu Aşura günündən də, on gün əvvəl başlayır və Ərbəindən sonrakı on günü də, matəm saxlayırlar. Bu, onların Əhli-Beytə (ə) olan məhəbbətindən irəli gəlir.***



Hər il Ərbəin günü istər Kərbəlada, İmam Huseynin (ə) pak hərəminin ətrafında olsun, istərsə də, müxtəlif məntəqələrdə - İmam Huseyn (ə) və əshabının zəvvarları saya gəlmir. Ziyarət etmək əlbəttə ki, ən yaxşı halda İmam Huseynin (ə) şərif məzarının yanında olmaqla, orada Aşura, İmam Huseyn (ə) ziyarətnamələrini oxumaqla olur, amma, sakini olduğumuz məntəqədən İmam Huseyni (ə) ziyarət etmənin, Kərbəla istiqamətində dayanıb Həzrətə (ə) salam verməyin özü belə, savab bir əməldir və Allah bu həsənə əməlin mükafatını verəcəkdir.

Peyğəmbərin (s) İmam Hüseyn (ə) sevgisi haqqında buyurduğu məhşur hədisləri çox eşitmişik. O hədislərin birində Rəsulullah (s) buyurur: "Möminlərin qəlbində İmam Hüseynin (ə) qətlinə görə elə bir hərarət vardır ki, heç vaxt o hərarət soyumaz." Bu gün saysız-hesabsız mömini Ərbəin gününə hazırlayan, Kərbəlaya aparan bu eşqdir. Bu, bir cür eşqdir ki, Allah (c.c) bu eşqi bizlərə vacib edib. Bu, bir cür eşqdir ki, digər peyğəmbərlər öz risalətlərinin, təbliğatlarının müqabilində ümmətdən heç nə istəmədilər, amma, Allah Rəsulu (s) bunun müqabilində ümmətin Əhli-Beytə (ə) məhəbbət göstərməsi və sevməsini istədi. Quran buyurur: "Allah iman gətirib yaxşı əməllər edən bəndələrinə bununla müjdə verir. (Ya Peyğəmbər!) De: "Mən sizdən bunun (risaləti təbliğ etməyimin) müqabilində qohumluq məhəbbətindən (Əhli-beytə (ə) sevgidən) başqa bir şey istəmirəm. Kim bir yaxşı iş görərsə, onun yaxşılığının savabının (mükafatını) artırarıq!" Həqiqətən, Allah bağışlayandır, qədirbiləndir! (Şükrün və itaətin, gözəl əməllərin əvəzini verəndir!)" ("Şura" surəsi, ayə 23)

Mübarək ayənin mətninə baxsaq, görərik ki, Allah-Təala Əhli-Beytə (ə) məvəddət (yəni, çox məhəbbət bəsləmək) məsələsinə gəlməzdən öncə, ayənin əvvəlində iman gətirib yaxşı əməl edənlərdən danışır və onların müjdələnməsini qeyd edir. Bundan sonra Əhli-Beytə (ə) məvəddət bəsləməkdən danışılır. Və bu söhbətdən sonra bir daha yaxşı iş görmək, əməlisalehlik gündəmə gətirilir, onun savabının artırılacağı vədəsi verilir.

Bir incə məqam ondan ibarətdir ki, bu məvəddət 23 illik risalət təbliğinin müqabilində istənilir. Yəni, 23 ilə Peyğəmbər (s) nə zəhmətlər çəkdi, təhqir edildi, daşlandı, qovuldu, hicrət etdi, terror edilmə təhlükəsiylə üzləşdi, şərləndi, Quranı gətirdi, dövlət qurdu, cəza, qanun, hüquq tətbiq etdi və bütün bunların müqabilində O Həzrət (s) Əhli-Beytə (ə) məhəbbət bəsləməsini ümmətdən istədi.

Bu eşqin bəhrəsidir ki, ümmət Ərbəin günü Kərbəlaya axışır.

Ötən illərin məlumatına görə təkcə Bəhreyndən 15000 İmam Hüseyn (ə) aşiqi Ərbəin üçün Kərbəlaya üz tutub. Ondan əvvəlki ilin sayı 24000-dir. Geridə qoyduğumuz ildə Ərbəinlə bağlı Kərbəlaya 15 milyon zəvvar axışmışdı. Təsəvvür edirsinizmi bir ölkənin əhalisindən qat-qat çox zəvvar, Əhli-Beyt (ə) aşiqi gəlir Kərbəlaya. Ərbəin zəvvarlarının təhlükəsizliyini təmin etmək üçün ən azı 36 minlik heyət hazır vəziyyətə gətirilmişdi. Aparılan əməliyyatlar nəticəsində 66 nəfər terrorçu zərərsizləşdirmişdi. Məqsəd İmam Hüseyn (ə) sevgisini qəlblərdən silməkdir. Məqsəd odur ki, insanlarda bir xof yaransın və onlar bu ziyarətə son qoysunlar. Amma, unudurlar ki, bu ziyarət o kəsin ziyarətidir ki, O (ə) bütün haqsızlıqlara, zülmlərə, qorxulara, əziyyətlərə, məşəqqətlərə, məhrumiyyətlərə qalib gəldi. Terrorla, partlatmaqla İmam Hüseyn (ə) sevgisini qəlblərdən, mömin ürəklərdən silmək mümkünsüzdür. Və üstəlik hər kim bu yerlərdə terror edilirsə, onlar şəhid olurlar və inşəallah İmam Hüseynlə (ə) məhşur olacaqlar!

Bu terror hadisəsi heç də, ilk dəfə

deyildir. Biz tarixi vərəqləsək, görərik ki, tarix boyu nəinki Əhli-Beyt (ə) aşiqləri incidilib, əziyyətlərə məruz qalıb, hətta, lənətlik əməvi və abbasi hökümətlərinin dövründə İmam Hüseyn (ə) məzari-şərifi dağıdılıb, suların altında qalıb, şumlanıb, min bir tədbir tököblər ki, bu şərif məzarı yox eləsinlər, izi-tozu qalmasın, amma, gördüyümüz ki, bütün zəhmətlər boşa çıxıb və bu günün özündə də gedib İmamımızı (ə) ziyarət edirik. Kərbəlanı nəinki Aşura günü, Ərbəin günü, digər günlərdə də, boş görmək mümkünsüzdür.

Ötən il İmam Hüseyn (ə) övladlarından və ardıcıllarından olan Seyyid Həsən Nəsrullah Ərbəin günü çıxış edərək buyurmuşdur: "Bizi ölümlə hədələməyin! Çünki biz Hüseyn (ə) və Zeynul-Abidin (ə) övladlarıyıq, biz Allah Rəsulunun (s), Bədrin, Xeybərin, Hüneynin və Kərbəla övladlarıyıq! Biz ölümdən heç vaxt qorxmarıq!" Gördüyümüz kimi, İmam Hüseyn (ə) aşiqlərinin gözündə qorxu yoxdur. Onlar şəhadət üçün hazırdılar. Onlar Ərbəin günündən gözəl istifadə edib təbərrük edirlər.

Ərəbin günü həm də, İmam Hüseynin (ə) şərif məzarının ilk dəfə ziyarət edildiyi gündür. Bu gün Peyğəmbərin (s) sadiq və təqvalı səhabəsi olan Cabir İbn Abdullah Ənsari, özünün Ətiyyə adlı yaxını ilə Mədinədən yola çıxıb Kərbəlaya gəlmişdir. Cabirin gözləri görmürdü İmam Hüseynin (ə) ziyarətinə gələrkən. Təsəvvür edirsinizmi, İmam Hüseynin (ə) ilk zəvvarı fiziki gözü görməyən, amma qəlb gözü, mənəviyyət, bəsirət gözü açıq olan bir şəxsdir. O Həzrəti (ə) şəhid edən və tənha buraxanlardan fərqli olaraq.

Cabirin İmam Hüseyni (ə) ziyarət etməsi bu cür olmuşdur; Cabir rəhmətlik Kərbəlaya gəlir, Fərat çayında qüsul edib ətirlənir. Şərif məzara doğru atdığı hər addımda Allahı zikr edir. Məzara çatıb Ətiyyəyə deyir ki, əlimi məzarın üstünə qoy. Əli məzara dəydikdə huşunu itirib məzarın üstünə yıxılır. Ətiyyə onun üzünə su çiləyir, Cabir ayıldıqdan sonra üç dəfə "Ya Hüseyn!" deyə fəryad çəkir. Sonra mövlasıyla (ə) danışır Cabir: "Dost da, dostun cavabını verməz? Haradan mənə cavab verəsən, halbuki boynunun damarları çiyinlərindən asılı qalıb, başınla bədənin arasında ayrılıq düşüb..." Daha sonra Cabir rəhmətlik, İmam Hüseynin (ə) fəzilətlərini sadalayır, fəzilətli sülalədən olduğunu, fəzilətli insanların nəvəsi, oğlu olduğunu, Cəddinin, Atasının, Anasının pak-mübarək insanlar olduqlarını zikr edir İmam Hüseynin (ə) şərif məzarı qarşısında. Şəhadət verir Cabir, İmam Hüseynin (ə) pak-pakizə olmasına... Salam verir Cabir - İmam Hüseynə (ə), möminlərin qəlbinin bu ayrılıqdan ötrü narahat olmasını dilə gətirir...

Daha sonra Cabirin dedikləri Ətiyyəni təəccübləndirir. O, digər şəhidlərin məzarına baxıb deyir: "And olsun Məhəmmədi (s) haqq olaraq peyğəmbərliyə seçən Allaha, biz sizinlə sizin daxil olduğunuz yerdə, yəni, cənnətdə şərik olduq." Ətiyyə, axı bunun necə mümkün olacağını, onların başlarının bədənlərindən ayrıldığı, özlərinin (Cabirlə Ətiyyənin) isə Kərbəlada vuruşmadığını, qılınc vurmadıqlarını deyir. Cabir cavabında buyurur: "Ey Ətiyyə, həbibim Rəsulullahdan (s) eşitdim ki, deyirdi: Hər kəs hər hansı bir dəstəni sevsə, onunla da məhşur olacaq. Hər kəs bir dəstənin əməlindən razı olsa, onlarla həmin əməldə şərik olar. And olsun Məhəmmədi (s) haqq olaraq Peyğəmbərliyə təyin edən Allaha, mənim və mənim əshabımın niyyəti Hüseynin (ə) öz əshabı ilə bir yerdə keçdiyi yoldur."

Bu məqamda iki nöqtə diqqət çəkir. Biri Cabirin həmin günü zikr və İslam Peyğəmbərindən (s) nəql etdiyi hədisi-şərifdir. Digəri isə İmam Hüseynin (ə) Kərbəlaya yola düşərkən İslam Peyğəmbərinə istinad edərək buyurduğu hədisi-şərifdir. İmam Hüseyn (ə) buyurur: "Cəddim Rəsulullah (s) buyurmuşdur: Hər kim zülmkar hökmdarın ilahi hökmlərdən boyun qaçırıb, Allahın halalını haram, haramını halal etdiyini görüb, əməli, dili və yaxud qəlbi ilə ona qarşı çıxmazsa, Allah o adamı da, həmin zalım hakimi qərar verdiyi Cəhənnəm odunda qərar verəcək."

Hər iki mübarək buyuruşun verdiyi mesaj ondan ibarətdir ki, hər kim bir pis adamın əməlindən razı olsa, o da o pisliyə şərikdir və eyni zamanda hər kim bir yaxşı adamın hərəkətindən razı olarsa, o şəxs də, o yaxşılığa şərikdir. Bu səbəbdəndir ki, Cabir ibn Abdullah and içir ki, biz də sizin daxil olduğunuz Cənnətdə sizinlə şəri olduq.  Çünki Cabirin və əshabının niyyəti İmam Huseynin (ə) öz əshabı ilə bir yerdə keçdiyi yoldur.

Daha sonra Cabir Ətiyyəyə öz qızılı vəsiyyətini edir. Əslində bu vəsiyyət bütün möminlərə edilən vəsiyyətdir. Vəsiyyətində dönə-dönə tapşırır ki, Əhli-Beytə (ə) düşmən olanlarla Ətiyyə də düşmən olsun. Hətta, bu düşmənlər namaz qılan, orucu tutan, həccə gedən olsalar belə. Həmçinin, tapşırır ki, Əhli-Beytə (ə) dost olanlarla dost olsun. Əhli-Beyt (ə) dostluğu və Əhli-Beytə (ə) dost olanların dostluğu çox mühümdür və fəzilətlidir. Hətta, Cabirin də buyurduğu kimi Əhli-Beyt (ə) dostlarının qəlbi bir anlıq günaha meyillənmiş, bir ayağı günaha büdrəmiş olsa belə, digər ayağı Əhli-Beytə (ə) dostluqda möhkəmdirsə, onlarla dostluq etsin. Çünki Əhli-Beyt (ə) dostları cənnətə, düşmənləri isə cəhənnəmə gedəcəkdir.

Gördüyümüz kimi, Ərbəin bir məktəbdir. Ərbəin gününün bizlərə verdiyi önəmli mesajları və dərsləri vardır. Ərbəin möminlərə cəsarət, rəşadət, şəhadət dərslərini öyrədir, onları zillətdən uzaqlaşdırıb, izzətli yaşamağa dəvət edir. Bu gündən lazımınca bəhrələnmək, təbərrük etmək gərəkdir. Ərbəin günündə Əhli-Beytin (ə) dostuyla düşməni seçilir. Ərbəin günündə kimin cənnətlik, kimin cəhənnəmlik olması bilinir. Ərbəin günündə kimin şəhadət, izzət məktəbinin yetirməsi, kimin isə zillət içində yaşaması, bir ömrü hədər etməsi bilinir...

Allah-Təala bizləri həqiqi Əhli-Beyt (ə), İmam Hüseyn (ə), Aşura, Ərbəin günlərinin aşiqlərindən qərar versin!

# İMAM CƏFƏR SADİQİN (Ə) TƏVƏLLÜD TARİXİ

***İmam Sadiq (ə) hicri-qəməri 83-cü ildə rəbiüləvvəl ayının 27-də cümə günü səhər tezdən müqəddəs Mədinə şəhərində dünyaya gəlmişdir. Atası İmam Baqir (ə), anası isə Qasim ibn Məhəmməd ibn Əbu Bəkrin qızı Ümmü-Fərvədir.***

***Həzrət Sadiq Cəfər ibn Məhəmməd ibn Əli ibn əl-Hüseyn (ə) qardaşları arasında atasının canişini idi. Ondan sonra imamət məqamına yüksəldi. Bilik və fəzilətdə qardaşlarından öndə idi. Onların hamısından adlı-sanlı, hörmətli idi. Bütün müsəlmanlar arasında böyük hörmətə malik idi. Onun öyrətdiyi biliklər, buyurduğu kəlamlar xalq tərəfindən o qədər nəql edilmişdi ki, karvanların, yolçuların dillərində gəzirdi və adı eldən-elə gəzirdi. Bu xanədandan heç kimdən onun qədər hədis nəql edilməmişdir. Rəvayətçi və hədisçilər onun qədər heç kimdən faydalanmamışlar. Çünki hədisçilər o həzrətdən (ə) nəql edən ravilərin etibarlılarını etiqad fərqlərini, nəql fərqlərini nəzərə alaraq toplamışlar ki, onların sayı dörd mini aşmışdır.***

***O həzrətin (ə) imamlığı haqqında aydın sübutlar o qədər çoxdur ki, könülləri valeh edir və düşmən dilini qısır, lal edir.***




**İmam Sadiqin (ə) ad və ləqəbləri**

O həzrətin (ə) adı Cəfər, məşhur ləqəbi həzrət Sadiqdir. Hərçənd, başqa ləqəb-ayamaları da var. Misal üçün, Sabir, Fazil, Tahir. Sadiq ləqəbini ona Peyğəmbər (s) vermişdir. Mərhum Məclisi "Bihar əl-ənvar" əsərinin 47-ci cildində (səh. 8) aşağıdakı məzmunda bir rəvayət nəql edir:

"İmam Zeyn əl-Abidin (ə) atasından, o da babası Əmirəlmöminindən (ə) nəql etmişdir ki, Peyğəmbər (s) buyurdu: "Mənim övladım Cəfər ibn Məhəmməd ibn Əli ibn Hüseyn ibn Əli ibn Əbu Talib dünyaya gəldikdə onu Sadiq adlandırın. Çünki onun övladlarından onunla eyni adda olan haqsız yerə imamlıq iddia edən biri olacaq. Onu təkzib edin".

**İmam Sadiqin (ə) vəfatı**

İmam Sadiq (ə) hicri-qəməri 148-ci ildə 25 şəvvalda 65 yaşında dünyasını dəyişdi və Bəqi məzarlığında atası, babası və əmisi İmam Müctəbanın (ə) yanında torpağa tapşırıldı. Rəvayətə görə, o həzrətə (ə) çox əzablar verildikdən sonra Mənsur Dəvaniqinin məmurları tərəfindən şəhid edildi.

Allah-Taala bizim hamımıza o həzrətin (ə) ardıcıllarından olmaqda yardımçı olsun.

**İmam Sadiqin (ə) həyat yoldaşları və övladları**

İmam Sadiqin (ə) ailə qurduğu qadınlardan Said Məğribin qızı Hümeydə və Fatimə bint Hüseyn ibn Əli ibn əl-Hüseyn ibn Əli ibn Əbu Talibin (ə) adını çəkmək olar.

O həzrətin (ə) on övladı olmuşdur. Onlardan yeddisi oğlan, üçü qız olmuşdur. Bəzi tarixçilərə görə o həzrətin (ə) övladlarının sayı on bir (yeddisi oğlan, qalanı qız) olmuşdur.

İmamın (ə) övladlarının adları belədir: İsmayıl Ərəc (onu İsmayıl Əmin də adlandırmışlar), Abdullah, Ümmü-Fərvə (o, qiyam edən əmisi oğlu Zeydlə ailə qurmuşdur). Şeyx Mofid yazır: "Onların anası Fatimə bint Hüseyn ibn Əli ibn Hüseyn ibn Əli ibn Əbu Talib (ə) olmuşdur". Abdullah ibn Əxzər Cənabuzi yazır: "Onların anası Fatimə bint Hüseyn Əsrəm ibn Həsən ibn Əli ibn Əbu Talib olmuşdur".

O həzrətin (ə) digər övladları İmam Museyi-Kazım (ə), Məhəmməd Dibac, İshaq, Fatimeyi-Kübra Hümeydə Bərbəriyyə adlı kənizdən dünyaya gəlmişdilər. Abdullah ibn Əxzər Cənabuzi yazır: "O (Fatimeyi-Kübra), Məhəmməd ibn İbrahim ibn Əli ibn Abdullah ibn Abbasa ərə getdi və onun evində də dünyasını dəyişdi.

O həzrətin (ə) digər övladları Abbas, Əli Üreyzi, Əsma və Fatimeyi-

Süğra olmuş və hər biri ayrı kənizdən dünyaya gəlmişlər. İmamın (ə) övladlarının sayını on yazanlar Fatimeyi-Kübranı yazmamışlar. On bir nəfər yazanlar isə Fatimeyi-Kübranı da qeyd etmişlər.

İbn Şəhraşubun "Mənaqib" əsərindəki təbirlərindən anlaşılır ki, Ümmü-Fərvə həmin Əsmadır. O, Yazır: "Əsma Ümmü-Fərvə o qadındır ki, əmisi oğlu Zeyd ibn Əlinin üsyanında iştirak etdi və onunla ailə qurdu". Bu ehtimal doğru ola bilməz. Çünki Ümmü-Fərvə künyə hesab olunur, ad yox. Əgər Fatimeyi-Kübranı İmam Sadiqin (ə) övladlarından hesab etsək və onu Əsma ilə eyni adam saysaq, imamın (ə) övladlarının sayı on nəfər olacaq.

### İmam Sadiqin (ə) bizə tövsiyə və məsləhətləri

Əbu Xəsyəmə adlı bir nəfər İmam Sadiqin (ə) belə buyurduğunu nəql edir: "Bizim dostlarımıza salam söylə. Onlara təqvalı olmağı və yaxşı əməlləri tövsiyə edirəm. Onlara de ki, sağlamlar xəstələrə baş çəksin. Varlılar yoxsullara baş çəksinlər. Dirilər ölüləri məzarlığa qədər yola salsınlar və dəfn mərasimlərində iştirak etsinlər. İnsanlar bir-birlərinin evinə get-gəl etsinlər. Dini fikir mübadilələrini gündəlik məşğuliyyətlərinə çevirsinlər. Çünki bu, bizim "vilayət və imamət"imizin yaşamasına səbəb olur. Allah bizim haqqımızı yaşadanlara rəhmət etsin. Ey Xəsyəmə! Onlara bildir ki, əməlisaleh olmasalar, Allahın fərmanı qarşısında onlar üçün bir iş görə bilmərik. Çünki bizim vilayətimiz pəhrizkarlıqdan başqa şeylə gerçəkləşməz. Qiyamətdə ən şiddətli əzab ədalət və yaxşılığı insanlar üçün tərfləyib, özləri başqa yola gedənlərə aiddir".

Başqa bir şəxs deyir: "İmam Sadiqə (ə) dedim: "Mənə tövsiyə et". Həzrət (ə) buyurdu: "Səni ilahi təqvaya və pəhrizkarlığa, ibadət və uzun səcdəyə, doğruçuluğa, yaxşı qonşuluğa çağırıram. Çünki Peyğəmbərin (s) təlimlərinin önündə bunlar yer almışdır". Sonra əlavə etdi: "Qohumlarınızı yoxlayın, xəstələrə baş çəkin, möminlərin dəfn mərasimində iştirak edin, bizim üçün zinət olun, bizim başımızı aşağı dikməyin".

### İmamın (ə) elmi məktəbi

İbn Uqdə Zeydi öz rical kitabında İmam Sadiqin (ə) dörd min ravisi olduğunu bildirir və kitablarını qeyd edir. Əksər fəqihlər Cəfər Sadiq (ə) məktəbinin yetirməsi olmuşlar. Bu zümrədən Zürarə ibn Əyun, qardaşları Bəkr və Həmran, Cəmil ibn Saleh, Cəmil ibn Dərrac, Məhəmməd ibn Müslim Taifi, Büreyd ibn Müaviyə, Hişam ibn Həkəm, Hişam ibn Salim, Əbu Bəsir, Übeydullah, Məhəmməd, İmran Hələbi, Abdullah ibn Sənan, Əbu əs-Səbah Kənani və başqa bir çoxlarının adını çəkmək olar.

Sözügedən dörd min ravidən başqa digər bir çox görkəmli alimlər, əhli-sünnə məzhəblərinin öndərləri və böyük elm adamları İmam Sadiqdən (ə) hədis nəql etmişlər. Onlardan Əbu Hənifə, İbn Üyəynə, Süfyan Suri, Malik ibn Ənəs, Yəhya ibn Səid Ənsari, İbn Cüreyh, Əban ibn Təğlib, Əbu Əmr ibn Əla, Əmr ibn Dinar, Cabir ibn Həyyan, Əyyub Səxtiyanini adını çəkmək olar. Təsadüfi deyil ki, onların arasında Qərbdə Geber adlanan məşhur kimyaçı Cabir ibn Həyyan da yer alır. O, bir çox ixtiralarını İmam Cəfər Sadiqə (ə) istinad edir. Bəlli olur ki, İmam Cəfər Sadiq (ə) yazmağı şagirdlərinə tapşıran alimlərdən olmuşdur.

İmam Sadiq (ə) hər gün dərsdən sonra müxtəlif insanlarla, Allahı dananlarla mübahisəyə başladı. Bu mübahisələrin bəzilərinin mətnində qan dövranı kimi o dövr üçün elmə məlum olmayan məsələlərə toxunulmuşdur.

Tərcümə edən: **Maqsud Sayıl**



# VƏHDƏT HƏFTƏSİ



İslam məzhəblərinin vəhdəti xüsusilə çağdaş dövrümüzdə və müsəlmanların müstəmləkəçilik və digər bir çox beynəlxalq siyasi problemlərlə üzləşdiyi bir zamanda bəzi fikir adamları tərəfindən irəli sürülmüşdür. İslam ümmətinin – məzhəblərin müştərək düşmənlərə qarşı birgə savaşı və bir çox ölkələrdə milli vəhdəti qorumağın qarantı hesab olunur.

## İslam vəhdətinin tərifi

İslam vəhdəti dedikdə digər din mənsubları islama qarşı savaş halında olduqda islam məzhəblərinin müharibə müddətində bir araya gəlməsi, müştərək düşmənə qarşı birləşməsi nəzərdə tutulur. Bu, heç də məzhəblərin bütün hallarda birləşməsi, qanun və şəriətlərinin eyniləşməsi demək deyil. Ümumilikdə İran İslam Respublikası bu ifadəni – islami vəhdəti – işlədir və bu məqsədlə "vəhdət həftəsi" də təyin etmişdir.

## Cəfəri məzhəbinin vəhdət yaratmaq yönündəki addımları

"Məşrutə" inqilabı (monarxın hakimiyyətinin konstitusiya ilə məhdudlaşdırılmış hakimiyyət quruluşu) dönəmində cəfəri məzhəbinə mənsub mərcəi-təqlidlər məzhəblərin vəhdəti ilə bağlı bəyanat verdilər. Bəyanatda deyilirdi: "Görürük ki, beş müsəlman məzhəbi (aralarındakı dinin prinsiplərinə aid olmayan fikir ayrılıqları səbəbilə) müsəlman dövlətlərin tənəzzülünə, əcnəbilər tərəfindən istilaya məruz qalırlar. Dini ictimaiyyəti qorumaq, Məhəmməd (s) şəriətini müdafiə etmək məqsədilə cəfəri məzhəbinin rəhbərləri mərcəi-təqlidlər və əhli-sünnə alimləri yekdil rəy qəbul etmiş, İslam ipindən yapışaraq bütün müsəlmanların İslamın əsasını qorumaq və müsəlman dövlətlərin xarici dövlətlərə bənzəməkdən, səlib yürüşlərindən qorumaq məqsədilə yekdil olmaq qərarını almışlar. Ümumilikdə bu fitva islamın əsasını qorumaq üçün nəzərdə tutulmuşdur və fitvanı verənlər bu yöndə bütün nüfuz və güclərindən istifadə edirlər". Ayətullah Nurullah Nəcəfi İsfahani, Axund Xorasani, Seyid İsmayıl Sədr, Şeyx əş-Şəriə İsfahani, Şeyx Abdullah Məzandarani bu bəyanatı imzalamışlar.

İslam İnqilabından sonra Ayətullah Müntəzirinin təklifi və Ayətullah Xomeyninin tam himayəsi ilə müsəlman məzhəblər arasında Peyğəmbərin (s) mövludu ilə bağlı bir həftəlik fərq "vəhdət həftəsi" adlandırıldı. Ayətullah Xomeyni dedi: "Biz əhli-sünnə müsəlmanlarla birik. Əgər kimsə biz müsəlmanların arasında təfriqəyə yol açacaq söz desə, bilsin ki, cahildir, yaxud müsəlmanlar arasına ixtilaf salmaq istəyənlərdir. Sünni və şiə məsələsi əsla yoxdur. Biz qardaşıq".

"İranlı və digər ölkələrdən olan şiə qardaşların müsəlmanların sıralarını böləcək cahilanə söhbətlərdən çəkinməsi zəruridir. Əhli-sünnə camaat namazların iştirak etmələri vacibdir. Evlərdə camaat namazları təşkil etmək, qeyri-adi hal kimi səsucaldanlardan istifadə etməmək vacibdir".

"Bu gün İmam Əli (ə) üzərindən ixtilafa düşmək islama xəyanətdir".

Həmin hərəkatın davamı olaraq Ayətullah Xamenei də (yalnız Məkkə və Mədinədə yox) əksəriyyətin əhli-sünnə olan bölgələrdə əhli-sünnə camaat namazlarında iştirak etməyi zəruri hesab edir. Bu istiqamətdə xalçaya səcdə, əlləri bağlamaq və məğrib namazını məğrib azanından öncə qılmağa da icazə verir. İslam alimləri hətta şiələrin qətlini vacib hesab edən radikal sünnilərə misli ilə qarşılıq verməyi icazəli hesab etmirlər.

## Əhli-sünnə vəhdət yaratmaq yönündəki addımları

Əhli-sünnə də "hər kəsin namazı özü üçün düzgün olarsa, başqaları üçün də düzgündür" prinsipinə uyğun olaraq cəfəri məzhəbinə iqtida etməyi icazəli hesab edirlər.

Bu mövzuda Misir müftisi Doktor Nəsr Fərid deyir: "Allaha imanı olan, şəhadətləri deyən, dinin zərurətlərini qəbul edən, islam rüknlərindən, namaz və onun şərtlərindən xəbərdar olan hər bir müsəlmanın başqası üçün və başqalarının onun üçün pişnamaz olması şərtlərə uyğun olduqda düzgündür. Əhli-beyt (ə) ardıcılları da bu qəbildəndirlər və şəriətin təməl prinsiplərində bir-birləri ilə fikir ayrılıqları yoxdur. Bu səbəbdən də biz Tehranda və Qumda onların arxasında namaz qılırdıq".

"Əl-Əzhər" müftisi Şeyx Şəltutə və bir çox başqa alimlərə görə, cəfəri fiqhinə təqlid etmək dörd əhli-sünnə məzhəbinə təqlidlə eyni və mötəbərdir.

İdrak.İnfo